**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Regionlarda kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətləri”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**Abbaszadə Vüsal Ələddin**

**BAKI - 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**___________________________ imza**

**“____” ________________ 2020-ci il**

**“Regionlarda kiçik və orta sahibkarlığın inkişafı sahəsində dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətləri”**

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı:** 060404 - “İqtisadiyyat”

**İxtisaslaşma:** “İqtisadiyyatın tənzimlənməsi”

**Qrup:** 22

**Magistrant:**
**Abbaszadə Vüsal Ələddin oğlu**
**______________________ imza**

**Elmi rəhbər:**
**i.e.n., dos.Mahmudova İlhamə Məhəmmədnəbi qızı**
**____________________imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos.Hümbətova Suqra İnqilab qızı**
**______________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**_____________________imza**

**BAKI - 2020**

## Elm andı

Mən, Abbaszadə Vüsal Asif oğlu and içirəm ki, “Regionlarda kiçik və orta sahibkarlıq fáliyyitinin inkişaf sahəsində dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**REGİONLARDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFI SAHƏSİNDƏ DÖVLƏT DƏSTƏYİ MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ**

**XÜLASƏ**

**Mövzunun aktuallığı: Bazar prinsiplərinin əsasında fəaliyyətdə olan iqtisadi strukturun təkminləşməsi yönündə tənzimləyici və stimullaşdırıcı siyasət həyata keçirən ölkəmiz kiçik və orta sahibkarlığın təşəkkül tapması, onun inkişafıylaəlaqədar bir sıra məqsədyönlü, sistemli tədbirlər yerinə yetirir.**

**Tədqiqatın məqsədi: Tədqiqat işinin məqsədi kiçk və orta sahibkarlığın inkişafı üzrə dövlətin dəstəyinin göstərilməsinin və həmin dəstəyin hüquqi təminatının öyrənilməsindən ibarətdir. Məqsədin reallaşdırılması üçün aşağıda göstərilən vəzifələr yerinə yetirilməlidir:**

**-Regional siyasət, sahibkarlığın inkişaf istiqamətlərinin araşdırılması;**

**-Respublikada GZİT təhlildə kiçik və orta sahibkarlığın müasir durumunun təhlil olunması;**

**-Regionlarda kiçik və orta sahibkarlıq sahəsinin təkmilləşdirilməsi ilə bağlı dövlət mexanizminin təkmilləşdirilməsinin araşdırılması.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat işinin araşdırılması, təhlil edilməsi məqsədiləməntiqi ümumiləşdirmə, induksiya, deduksiya, analiz kimi tədqiqat üsullarından istifadə olunubdur.**

**Dissertasiyanın İnformasiya bazası: Dissertasiyanın informasiya bazası olaraq mövzu ilə əlaqədar monoqrafiyalardan, elmi-tədqiqat materiallarından, konfrans çıxışlarından, internet resurslarından s. istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat mövzusunun daha mükəmməl formada tədqiq və təhlil olunması, xüsusilə Azərbaycan nümunəsində təhlil olunması üçün məlumat bazasının kifayət qədər olmamağı.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Dissertasiyanın elmi yeniliyi aşağıda göstərilənlərdən ibarətdir:**

**-Respublikada GZİT təhlildə kiçik və orta sahibkarlığın hazırki vəziyyəti dəyərləndirilmişdir;**

**-Regionlarda kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişaf etməsi üçün dövlət mexanizminin təkmilləşdirilməsi qiymətləndirilmişdir.**

**Tədqiqatın praktiki əhəmiyyəti əldə edilən nəticələrin və verilən təkliflərin mövzu ilə bağlı elmi-tədqiqat işlərində istifadə edilə bilməsidir.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatın nəticələri elmi-praktiki əhəmiyyət kəsb edərək kiçik və orta sahibkarlığın inkişaf etməsi ilə əlaqədar gələcəkdə nəzərdə tutulan elmi tədqiqat işləri, qəbul ediləcək inkişaf proqramlar və veriləcək qərarlar və s. üçün əsas ola bilər.**

**Açar sözlər: Sahibkarlıq, GZIT təhlili, bölgələrin iqtisadi inkişafı**

**DIRECTIONS FOR IMPROVING THE MECHANISM OF STATE SUPPORT FOR THE DEVELOPMENT OF SMALL AND MEDIUM ENTERPRISES IN THE RE**


## SUMMARY

**The actuality of the subject: Our government, which pursues a regulator improve the market-based economic system, is taking many purposeful and measures to form and develop small and medium enterprises.**

**Purpose and tasks of the research: The purpose of the study is to study the current state of state support for the development of small and medium enterprises and the legal provision of this support. The following tasks must be performed to achieve the goal:**

**- Research of regional policy and development directions of entrepreneurship;**

**- Analysis of the current state of small and medium enterprises in the SWOT analysis in the country;**

**- Research of directions of improvement of the state mechanism for development of small and medium business in the regions.**

**Used research methods: Research methods such as logical generalization, analysis, induction, deduction were used to study and analyze the research work.**

**The information base of the research: The information base of the research includes monographs, research data, conference speeches, internet resources, etc. was used.**

**Restrictions of research: Insufficient database for a more thorough study of the research topic, especially in the case of Azerbaijan.**

**The novelty and practical results of investigation: The scientific novelty of the research is as follows:**

**- The current situation of small and medium enterprises was assessed in the SWOT analysis in the country;**

**- The directions of improving the state mechanism for the development of small and medium enterprises in the regions were assessed.**

**The practical significance of the research is that the results obtained and the suggestions made can be used in research work related to the topic.**

**Scientific-practical significance of results: The results of the research have scientific and practical significance, as well as future research work related to the development of small and medium enterprises, development programs to be adopted and decisions to be made, etc. may be the key to.**

**Key words: Entrepreneurship, SWOT analysis, economic development of the regions**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **AR** | Azərbaycan Respublikası |
| **GZİT** | Güclü tərəflər, Zəif tərəflər, İmkanlar və Təhlükələr |
| **İKT** | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| **KOS** | Kiçik və Orta Sahibkarlıq |
| **MDB** | Müstəqil Dövlətlər Birliyi |

# MÜNDƏRİCAT

**GİRİŞ........................................................................................................... 8**

**I FƏSİL. SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI............................................................ 12**

1.1. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi məzmunu........................................ 12

1.2. Sahibkarlıq formaları və yeni iqtisadi mühitdə münasibətdə onların fəaliyyəti ........................................................................................................................ 18

1.3. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin zəruriliyi və reallaşma mexanizmi ........................................................................................................ 28

**II FƏSİL. MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ VƏ ONA DÖVLƏT DƏSTƏYİNİN KOMPLEKS TƏHLİLİ.......................................... 36**

2.1. Regional siyasət və sahibkarlığın inkişaf istiqamətləri.................................. 36

2.2.Respublikada GZİT təhlildə kiçik və orta sahibkarlığın müasir vəziyyəti ....... 43

2.3. Sahibkarlıq fəaliyyətinin normativ-hüquqi təminatı....................................... 49

**III FƏSİL. REGİONLARDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA DÖVLƏT MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ ................................................................................. 54**

3.1. Regional siyasətin işlənib hazırlanmasının dövlət mexanizmi və GZİT təhlili ........................................................................................................................ 54

3.2. Müasir dövrdə Azərbaycanda regionların davamlı inkişafı prioritetləri və perspektiv istiqamətləri ..................................................................................... 63

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.......................................................................... 72**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI........................................... 75**

Cədvəllərin siyahısı........................................................................................... 78

Diaqramların siyahısı ........................................................................................ 78

# GİRİŞ

**Mövzu aktuallığı:** Müasir bazar iqtisadiyyatının əsas təşkiledicisi sahibkarlıq fəaliyyətinin yüksək inkişaf səviyyəsi sayılır. Sahibkarlığın özü yeni sosial təbəqənin əmələ gəlməsinə, istehlak bazarı daxilində azad rəqabət mühiti və çeşidli mülkiyyət formasına malik çoxnövlü təsərrüfat subyektlərinin formalaşması və əhalinin yaşayış səviyyəsinin yüksəldirilməsinə gətirib çıxarmaqdadır.

Ölkədə sahibkarlıq infrastrukturunun inkişaf etməsi, eyni zamanda maliyyə biznesinin formalaşması biri başqasının səbəb-nəticəsi olaraq çıxış etməkdədir. Real sahibkarlıq sektorunun inkişaf etməsi biznes formalaşmasına gətirib çıxarmaqdadır, öz-özlüyündə maliyyə biznesinin təkmilləşməsi də biznes maliyyə sektorunun inkişafının əsas şərtlərindən biri kimi qalır. Bu nöqteyi-zəzərdən maliyyə biznesi və iqtisadiyyatda real sektorun qarşılıqlı əlaqələrinin tədqiq edilməsinə böyük ehtiyac duyulur.

Bazar prinsiplərinə əsasən fəaliyyət göstərən iqtisadi sistemin inkişaf etməsi yönündə tənzimləyici siyasət həyata keçirən respublikamız kiçik və orta sahibkarlıq fəaliyyətinin təşəkkül etməsi və inkişafı ilə əlaqəli bir çox məqsədyönlü, həmçinin sistemli tədbirlər gerçəkləşdirir. Ancaq, bu sahədə bəzi problemlər indi də qalmaqda davam etməkdədir. Bununla birgə, kiçik və orta sahibkarlığın əhəmiyyətli fəaliyyətinin təmin olunması üçün hökümətin starteji siyasəti daimi olmalı, doğru müəyyənləşdirilməli, təsərrüfatla məşğul olan sahibkarların arasında baş verəcək inhisarçılıq meyilləri bazar prinsiplərinin əsasında ortadan götürülməli, haqsız rəqabətin qarşısının alınması, o cümlədən aradan qaldırılması tədbirləri irəliyə çəkilməlidir.

Ölkəmizdə kiçik və orta sahibkarlıqda kapital qoyuluşu, maliyyə, vergi və kreditlə əlaqəli mürəkkəb qaydaların olması, texniki-informasiya bazasının aşağı səviyyəli olması, onların əraziyə əsasən qeyri-bərabər paylanması, daxili bazarın müəyyən məna baxımdan məqsədəuyğun mühafizə edilməməsi, bazar infrastrukturunun sona kimi formalaşdırılmaması, həmçinin onun müasir tələblər üzrə təşəkkül tapmaması, qanunverici bazaların lazımi qədər qənaətbəxş səviyyədə

olmaması, qanunvericilikdə müəyyən boşluqların mövcudluğu, qanunvericilikdə əhatə dairəsinin kifayət dərəcə tam olmaması göstərilən sahə üzrə problemlərin olmasını göstərir.

Bu nöqteyi-nəzərdən mövzu aktuallığı bazar iqtisadiyyatı təbiəti və daxili məntiqlərdən irəliyə gəlmiş kiçik, həmçinin orta sahibkarlıq üzrə hökümətin dəstəyində hüquqi təminat məsələlərinin araşıdırılması, o cümlədən mövcud boşluqlar mövcudluğu ilə əlaqədardır.

**Problemin qoyuluş və öyrənilməsi səviyyəsi:** Ölkə iqtisadiyyatının bazar münasibətlərinə keçidi iqtisadi proseslərin müxtəlif tərəflərinin təkrar tədqiqini əsasən zəruri edə bilir. Sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi məsələlərinin tədqiqi daima sözgüedən sahə ilə işləyən iqtisadçıların tədqiqatında mərkəzi yeri tutmaqdadır.

Mövzu ilə bağlı fikirlərə bir çox alimlərin əsərlərində rast gəlmək mümkündür. Allahverdiyev H.V., Qafarov K.S., Mahmudov M.M., Mahmudova İ.M., Əhmədov Ə.M., Əhmədov M.A., Hüseyn A.C., Əlirzayev Ə.Q., Əliyev A.V., İbrahimov İ.H., Nuriyev Ə., Niftullayev V.M, İsmayılov İ.H., və başqaları mövzu ilə əlaqədar bir çox əsərlərin, monoqrafiyaların müəlliflərindəndirlər.

**Tədqiqatın məqsəd və vəzifəsi:** Tədqiqat işinin məqsədi kiçk və orta sahibkarlıgın bir iqtisadi məsələ kimi nəzəri-metodoloji təhlilinə əsasən ona dövlətin dəstəyi, həmin dəstəyin hüquqi təminatında hazırki vəziyyətin öyrənilməsi, həmin dəstəyin genişləndirilmə imkanlarının öyrənilməsi, daha əhəmiyyətli formaların elmi baxımdan əsaslandırılaraq ayrı-ayrı təkliflərin, həmçinin tövsiyyələrin hazırlanması, qanunverici bazanın inkişaf etdirilməsi, bu sahə üzrə dünya təcrübəsinin öyrənilərək yerli şəraitə uyğunlaşdırılmaqla tətbiq olunmasından ibarətdir.

Məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- Sahibkarlıq formaları və yeni iqtisadi mühitdə münasibətdə onların fəaliyyət mexanizminin tədqiq edilməsi;

- Regional siyasətin və sahibkarlıq fəaliyyətinin inkişaf istiqamətlərinin araşdırılması;

- Respublikada GZİT təhlildə kiçik və orta sahibkarlığın müasir vəziyyətinin təhlil edilməsi;

- Regionlarda orta və kiçik sahibkarlığın inkişafına dövlət mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin araşdırılması;

- Müasir dövrdə Azərbaycanda regionların davamlı inkişafı prioritetləri və perspektiv istiqamətlərinin təhlil edilməsi.

**Tədqiqat işinin obyekt və predmeti:** Tədqiqat işinin obyekti bölgələrdə kiçik və orta sahibkarlığın inkişaf etməsi, predmeti isə sahibkarlığın inkişafında dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin təhlil edilməsidir.

**Tədqiqat metodları:** Tədqiqat işinin araşdırılması və təhlil olunması məqsədilə məntiqi ümumiləşdirmə, analiz, müqayisəli təhlil, induksiya, deduksiya kimi tədqiqat metodlarından istifadə edilibdir.

**Tədqiqat işinin informasiya bazası:** Tədqiqat işinin informasiya bazası olaraq mövzu ilə bağlı monoqrafiyalardan, jurnal, qəzet, məqalə məlumatlarından, konfrans çıxışlarından, internet resurslarından, rəsmi sayt məlumatlarından və s. istifadə olunubdur.

**Tədqiqat işinin məhdudiyyəti:** Dissertasiya mövzusunun daha mükəmməl şəkildə tədqiq edilməsi, xüsusilə Azərbaycan nümunəsində təhlil edilməsi üçün məlumat bazasının kifayət qədər olmaması.

**Tədqiqat işinin elmi yeniliyi:** Tədqiqat işinin elmi yeniliyi aşağıda göstərilənlərdən ibarətdir:

- Sahibkarlıq formaları və yeni iqtisadi mühitdə münasibətdə onların fəaliyyəti qiymətləndirilmişdir;

- Sahibkarlığı dövlət tənzimlənməsinin zəruri olması və reallaşma mexanizmi təhlil edilmişdir;

- Respublikada GZİT təhlildə kiçik və orta sahibkarlığın müasir vəziyyəti dəyərləndirilmişdir;

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Ümumi nəticə olaraq tədqiqat mövzusunun başlıca praktiki əhəmiyyəti regionlarda kiçik və orta sahibkarlıq sahəsinin inkişafı sahəsində dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi istiqamətlərinin təhlilidir.

# I FƏSİL. SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN TƏNZİMLƏNMƏSİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

## 1.1. Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi məzmunu

Sosial-iqtisadi inkişaf konsepsiyasının özü mövcud potensialın əhəmiyyətli istifadəsi üsulu ilə maddi rifah məsələlərinin həllinə yönəldilməsi prosesi olmaqdadır. İqtisadi inteqrasiya yoxsulluğun səviyyəsinin aşağıya salınması və rifahın yüksəldilməsi perspektivlərinin çoxaldılması, əhəmiyyətli sosial-iqtisadi mexanizmlər seçilməsi və tətbiq edilməsi ilə mümkün olur. Bazar iqtisadiyyatı təcrübəsindən görünür, sahibkarlığın inkişaf etməsi sosial məsələlərin həll edilməsi üçün başlıca aparıcı mexanizm kimi qalır. Sahibkarlığın inkişaf etməsinə, onun sosial-iqtisadi əhəmiyyətliliyinə iqtisadi ədəbiyyatlarda ayrı-ayrı meyarlar və göstəricilər sistemindən baxılmaqdadır (Allahverdiyev H.V., Qafarov K.S. və Əhmədov Ə.M., 2007: s.17).

Sahibkarlıq iqtisad fəaliyyətin növü olaraq əmələ gəlmə tarixi orta əsrlərdən başlanmaqdadır. Daha bu zamanlarda tacirlərin, satıcıların, sənətkarların, həmçinin xeyriyyəçi missionerlərin bir çoxu da sahibkarlıqla məşğul olmağa başlamışd. Kapitalizm əmələ gəlməsi ilə bağlı olaraq sərvətin artırılması üçün cəhd gəlirin həcminin də hədsiz şəkildə artmasına gətirib çıxardı. Məhsulverici qüvvələr və istehsal əlaqələrinin inkişafetməsi sayəsində sahibkarlığın özü ən çox bəşəri xarakteri alıbdır. Sahibkarlıq fəliyyətinni inkişafı hazırda yüksək bir mərhələ üzrə gəlmişdir. Bu dövrdə sahibkar özünəxas olan fabrikdə və zavod daxilində başqa işçilər ilə birlikdə işləyir.

Bazar münasibətlərinin gələcəkdəki inkişafı sahibkarlıq üzrə səmərəli sosial-iqtisadi mühit yaratmağı nəzərdə tutur. Həmin anlayış iqtisad elminə birinci dəfə XVII əsrin axırı XVIII əsrin başlanğıcında ingilis iqtisadçı Riçard Kantilyonun tərəfindən gətirilmişdir. İqtisadçı "ticarətin təbiəti haqqında təcrübə" kitabında belə bir fikir irəli sürübdür ki, sahibkarlar risklər mühitində fəaliyyət göstərən şəxsdir. R. Kantilyonun özü torpaq və əməyi iqtisadi sərvətlətin əsası hesab etməkədir, o

cümlədən maddi nemətlərin dəyərin həmin faktorlarda axtarır. XVIII əsr axırı XX əsr  başlanğıcında tanınmış fransız iqtisadçı J. Sey “Siyasi iqtisadın traktatı” isimli kitabında sahibkarlığı, istehsalda üç  amil- torpağın, kapitalın və əməyin birləşdirilməsiylə xarakterizə etməkdə idi. O, özünün ktabında eyni zamanda ingilis sahibkarlarının istedadı, həmçinin İngiltərədəki sənayenin uğurlu inkişafını da önəmli faktorlardan biri olaraq qeyd etməkdədir. Kitabda əsas tezis olaraq sahibkarlığın məhsulun istehsalında aktiv rolu qeyd edilir, J. Seyin mülahizələri əsasən, sahibkarların gəliri onun əməyi və təşkilatçılıq qabiliyyəti üzrə əldə etdiyi qazancdır. O hesab edir ki, sahibkar-bu və ya başqa məhsul istehsal etmək məqsədilə öz kapitalıyla və təşəbbüskarlıq qabiliyyətilə riskə gedə bilən insandır.

XIX-XX əsrlər dünya iqtisadiyyatında sahibkarlığın rolu və səmərəsi getdikcə xeyli dərindən dərk olunmaya başlandı. Fransız iqtisadçı Andre Marşall birinci dəfə olaraq istehsalın yuxarıda qeyd edilən üç klassik amilinə (torpaq, kapital və əmək) dördüncü faktor da - təşkilatçılıq qabiliyyətin də əlavə etmişdir. Amerikan iqtisadçı C. Klark və J. Seyin üçvalentli formuluüzrə müəyyən dəyişikliklər etdi. O hesab edir ki, istehsal prosesin üzrə 4 faktor iştirak etməkdədir. Onlar aşağıda göstərilənlərdir (Niftullayev V.M., 2002: s.15):

1. Kapital;
2. İstehsal vasitələri ilə torpaqlar;
3. Sahibkarlığın özü;
4. İş gücü.

Göstərilən amillərin dördü də istehsaldan qazanılan gəlirdə özünəməxsus ayrıca çəki təşkil edir. Odur ki, kapital kapitalistlərə faiz; istehsal vasitələri ilə torpaq-renta; sahibkarlıq fəaliyyəti-gəlir gətirir; iş qüvvəsi də maaş ilə təmin olunur.

Sahibkarlığın özü şəxsin müstəqil şəkildə həyata keçirdiyi, başlıca məqsədi əmlak istifadəsi, əmtəə satışı, işlər görülməsi və ya həmçinin xidmətlər göstərilməsindən qazanc əldə edilməsi olan fəaliyyətdir (Vəliyev T.S., Babayev Ə.P., Meybullayev M.X., 2001: s. 92).

Ölkəmizdə kiçik və orta sahibkarlıq sahəsinin inkişaf etməsi iqtisadiyyatın diversifikasiyasının, rəqabətqabiliyyətliliyinin artırılmasının, məşğulluğun təmin olunmasının, istehlak malları üzrə olan tələbatın yerli resursların hesabına ödənilməsinin və iqtisadi inkişafın təmin olunmasının əsasında əhəmiyyət kəsb etməkdir

(.https:///documents/Ki%C3%A7ik_v%C9%99_orta_sahibkarl%C4%B1q_s%C9%99viyy%C9%99sind%C9%99_istehlak_mallar%C4%B1n%C4%B1n_istehsal%C4%B1na_dair.pdf, 2016).

Sahibkarlıq fəaliyyəti cəmiyyətin üzvlərinin şəxsi gəlir yaxud mənfəət əldə etməyə yönəldilmiş, öz riski, həmçinin öz əmlak cavabdehliyi ilə gerçəkləşdirilmiş sərbəst təşəbbüskar təsərrüfat fəaliyyətidir. Sözügedən fəaliyyətlə məşğul olanlar da sahibkar adlanır. Sahibkarlıq fəaliyyətində nə, nə üçün, kim üçün istehsal etmək, təsərrüfatın qanunlarının qəbul edilməsi, məhdud ehtiyyatlardan istifadənin daha mütərəqqi metodlarının axtarılıb tapılması, az xərc və keyfiyyətli məhsulun istehsalı, müasir xidmət yollarını tapılması, satışın əhəmiyyətli təşkili, alıcıların araşdırılması, rəqiblərin ətraflı öyrənilməsi və s. ilə xüsusən bağlıdır. Sahibkar öhdəsinə bir neçə funksiya düşməkdədir.

Sahibkar iqtisadi fəaliyyət üzrə önəmli olan bütün ehtiyyatları bir yerə yığır. Onlara təbii, investisiya, o cümlədən əmək ehtiyyatlarını aid etmək mümkündür. Sahibkarlar iqtisadi fəaliyyətdə ən əsas məsələlər üzrə qərarlar qəbul etməkdədir. Sahibkar yenilikçi olmaqdadır. Sahibkar öz vəsaiti, iş müddəti və iqtisadi mühitdə olan nüfuzu ilə risk edə bilir. Sahibkar hər şeydən öncə iqtisadi fəaliyyətdir. Bu fəaliyyət 3 tipə bölünür:

- Özünü yaşatma zərurətinə əsasən fəaliyyət.
- Rahatlıq, əlavə gəlir də qazanmaq mülahizələrinə əsasən fəaliyyət.
- Sahibkar mülahizələrinə əsasən fəaliyyət.

Ümumiyyətlə sahibkar olma istəyinin bir çox səbəbləri var: pul qazanma, ictimai rifaha töhvə vermə, öz fəaliyyət sahəsi üzrə "imperiyanı" yaratma, azad

fəaliyyət göstərmə, cəmiyyətdə özün təsdiq etmə və s. Göstərilən səbəblərdən asılı olmayaraq əsas məqsəd gəlir və mənfəət qazanmaqdadır.

Sahibkarlıq özünün miqyasına əsasən kiçik, orta, iri sahibkarlığa ayrılır. Bazar iqtisadiyyatına keçid dövlətlərində, eyni zamanda Azərbaycan Respublikasında da kiçik sahibkarlığın özü xalq təsərrüfatının inkişafı, əhalinin məşğulluğu vəümumi olaraq iqtisadiyyatın inkişafını müəyyənləşdirən önəmli iqtisadi faktordur.

Kiçik və orta sahibkarlıq sahəsinin səmərəsi hər bir dövlət üçün əvəzsiz olmaqdadır. Onlar nəhəng müəssisələrin istehsal edə bilmədiyi üçün əsas məhsulları yaxud məhsulların buraxılması üzrə lazım olan hissələri istehsal edir vəayrı-ayrı xidmətlər göstərir, kiçik pərakəndə ticarətçidirlər və iş yeri məhdud yerlərdəki işsizliyi az da olsa aradan qaldırılar, alıcıları məhsulla təmin edirlər, vergi ödəyərək büdcənin gəlirini çoxaldırlar, əhalinin müəyyən bir qisminin gəlir yeridirlər, iri müəssisələrə nəzərən çevikdirlər -mümumiyyətlə ümumi həyat səviyyəsinin yüksəlməsi üçün bir qədər səmərəli rol oynayırlar (İmanov İ.S., 2009: s.132).

Sahibkarlıq fəaliyyəti fiziki şəxslər və onların birliklərinin, həmçinin hüquqi şəxslərin mənfəət yaxud şəxsi gəlir əldə olunması üçün özlərinin cavabdehliyi, əmlak məsuliyyəti ilə və ya başqa hüquqi yaxud da fiziki şəxslər adından qanunvericiliklə qadağan olunmayan ən əsas təsərrüfat fəaliyyətinin bütün növlərinin, eyni zamanda məhsul istehsalının, satışı və xidmətlər göstərilməsininşəklində həyata keçirdikləri azad təşəbbüskarlıq fəaliyyəti olmaqdadır. Sahibkarlıqla əlaqəli münasibətlər mülkiyyət formasın, fəaliyyət növü və sahəsindən asılı olmadan beynəlxalq hüquq öhdəlikləriylə tənzimlənməkdədir.

Sahibkarlıq fəaliyyətinin başlıca məqsədi kimi aşağıda göstərilənlər çıxış edə bilər:

1. bu və yaxud digər obyektə sahibkar kapitalı və maddi resursların yönəldilməsi zamanı əldə edilən mənfəət;

2. vətəndaşların, regionun, cəmiyyətin, dövlətin konkret tələbatlarının ödənməsi;

Bundan başqa məqsəd böyük çərçivəyə sahib olmaqla tərkibinə aşağıda göstərilənləri də daxil edə bilər:

1. istehsalın genişləndirilməsi, yeni bazarlar əldə edilməsi məqsədilə pul kütləsinin toplanması;

2. təşkilat işçilərinin sosial durumunun yaxşılaşdırılması;

3. təşkilatın istehsal etmiş olduğu məhsula olan tələbatın optimallaşması;

4. cəmiyyətin etik və mənəvi tələbatının yaxşılaşdırılmasına kömək göstərilməsi;

5. göstərilən məqsədə çatmaq üçün müəssisənin prespektiv və cari siyasəti daxilində sahibkarlığın konkret məsələrinin müəyyən edilməsi, həll olunması.

Yuxarıda qeyd edilən məqsədləri daha mükəmməl formada həyata keçirmək üçün ölkə başçısı İlham Əliyevin rəhbərliyi ilə də həyata keçirilmiş iqtisadi islahatlar yeni mərhələyə də əsas qədəm qoymuşdur və bu prosesin başlıca istiqamətləri sırasında orta və kiçik sahibkarlığın inkişaf etdirilməsi, onun iqtisadiyyatda əsas rolunun artırılması prioritet kimi müəyyən edilib. Azərbaycanda sahibkarlığın inkişafı sahəsi üzrə gerçəkləşdirilən sistemli tədbirlərin davamı şəkildə dövlət başçısının 2017-ci ilin 28 dekabr tarixi Fərmanına əsasən Kiçik və Orta Biznes İnkişafı Agentliyi yaradılıbdır (http://smb.gov.az/news/kobia-nin-idar-heytinin-sdri-orxan-mmmdovun-report-informasiya-agentliyin-musahibsi, 2019).

Sahibkarlıq fəaliyyətinin iqtisadi fəaliyyət növü olaraq formalaşdırılması üçün bir sıra şərtlər olması tələb edilir. Həmin şərtlərə birinci olaraq iqtisadi, sosial, hüquqi, eyni zamanda başqa amilləri göstərmək olar. Sahibkarlıq fəaliyyətidəki iqtisadi şərtlərə ilk olaraq əmtəə təklifi və bu əmtəələrə olan tələbat, əmtəə növləri (belə ki, istehlakçı tərəfindən əldəolunur), pul vəsaiti həcmi (belə ki, lazımlı malın əldə olunmasına sərf olunur), işçi qüvvəsi və iş yerlərinin artıq olması və azlığı, işçilərin əmək haqqının səviyyəsi üzrə təsir göstərən amillər və s. aid edilməkdədir. İqtisadi vəziyyətə maliyyə ehtiyyatlarının həcminin, gəlirlərin səviyyəsinin, investisiyaya yönəldilmiş kapitalın həcminin, o cümlədən işgüzar əməliyyatları maliyyələşdirmə məqsədilə istifadə olunacaq borc vəsaiti məbləğinin hamısı

əhəmiyyətli şəkildə təsir edir. Sahibkarlıq fəaliyyəti üzrə önəmli sayılan iqtisadi şərtlərə ən fərqli təşkilati strukturlar daxil olmaqdadır. Onunsa yardımı ilə sahibkarların çoxu kommersiya əməliyyatların gerçəkləşdirirlər. Həmin strukturlara nümunə kimi aşağıda göstərilənləri qeyd etmək mümkündür (Əliyev A.V., 2018: s. 5):

- banklar - maliyyə xidmətini göstərir;

- əmtəəgöndərənlər-xammal, material, yarımfabrikat, yanacaq, enerji, maşın, həmçinin avadanlıqlarla təchiz olunması;

- topdansatış və pərakəndə ticarət strukturların-əmtəənin alıcılara çatdırılmasın;

- ixtisaslaşdırılan firmalar, hüquq, mühasibat və vasitəçi xidmətlərin;

- işi düzəltmək agentlikləri-işçi gücünə olan resursların təmin olunmasını; agentliklərin hər biri-reklam, nəqliyyat, sığorta, informasiya-rabitə xidmətlərini gerçəkləşdirir.

İstənilən dövlətdə sahibkarlığın fəaliyyəti üçün istehsal faktorlarının olması zəruridir. Müəyyən anda amillər məcmusu deyil, onların əmələ gəlmə və sahələrin tələbatı üzrə uyğunlaşma şəraiti önəmli rol oynayır. Amillərin bolluğu bir sıra hallarda inkişafa yox, tənəzzülə səbəb yarada bilər, əksinə inkişaf üzrə təkan verə biləcək faktorların kasadlığı, sahibkarlı yeni üsullar axtarmağa, nəticə etibarilə uzunmüddətli üstünlüklər əldə edilməsinə gətirib çıxara bilir.

Ehtiyatları aşağıda göstəriləndəki qruplara bölmək olar:

- insanresursları-iş qüvvəlrinin miqdarı və ixtisas səviyəsi, həmçinin dəyəri;

- fizikiresurslar-təbii ehtiyatlardan, torpaq, su, faydalı qazıntı, meşə ehtiyyatlarının və sahibkarlığın həcmi, keyfiyyəti və istismar imkanlar və dəyəri;

- bilikresurslar-elmi, texniki, əmtə, xidmətlərə təsir göstərən bazar məlumatlarının toplusu;

- maliyyəresursları-sənaye sahələrinə cəlb edilə bilən kapitalın həcmi, həmçinin dəyəri;

- infrastruktur-nəqliyyat, rabitə, poçt və ödəmə xidmətlərinin durumu, səhiyyə sistemi və b.

Sahibkarlığın inkişafı üzrə amillərin uzunmüddətli rolun aydınləşdırmaq məqsədilə onları tiplərə ayırmaq önəmlidir. Amilləri fərqləndirmək məqsədilə iki önəmli prinsiplər nəzərə çarpa biləcək dərəcədə olur. Birinci prinsipə əsasən, amillər 2 qrupa-əsas və əldə edilən amillərə ayrıla bilir. Əsas amillərə-təbii resurslar, iqlim şəraiti, dövlətin coğrafi durumu, az ixtisaslı, həmçinin yarım ixtisaslı işçi qüvvəlri məxsusdur. Əldə edilən amillərə-rəqəmli əsas üzrə informasiya mübadiləsi etmiş müasir infrastruktur, yüksəkixtisaslı kadrların mürəkkəb sahələrlə məşğul ola bilən unverstitetlər aiddir. Müasir şəraitdə önəmli amillər üzərində uzunmuddətli inkişaf əldə etməkqeyri-mümkündür. Bu üsulla əldə edilən üstünlüklər tez bir vaxtda itirilə bilər (İbrahimov İ.H., 2010: s. 117). Əsas amillər öz səmərəsini hasilat sahələri və kənd təsərrüfatında ümumiyyətlə sadə texnologiya, həmçinin iş vərdişləritələb edilən sahələrdə yoxlayır. Yüksək səviyyəyə malik inkişaf göstərişlərinə ancaq əldə edilən göstərişlərəəsasən olmaq mümkündür. Odur ki, belə amillər əsas amillər adı geniş yayılmamışdır, o cümlədən öz inkişafı üçün bir qədər insan səyi və kapitalı tələb edir.

## 1.2. Sahibkarlıq formaları və yeni iqtisadi mühitdə münasibətdə onların fəaliyyəti

Müasir bazar iqtisadiyyatının əmələ gəlməsi, elmi-texniki tərəqqinin, iqtisadi münasibətlərin hüquqi aspektlər fonunda inkişaf etdirilməsi sahibkarlıq fəaliyyətinin belə yeni təşkilat-hüquqi formaları əmələ gəlməsinə səbəb olmuşdur. Bu cəhətdən sahibkarlıq fəaliyyətinin aşağıda göstərilən müasir formalarını ayırmaq olar:

1. təsərrüfat yoldaşlıq cəmiyyəti,
2. istehsal kooperativi,
3. dövlət formaları ilə bələdiyyə formaları,
4. unitar müəssisə.

İqtisad ədəbiyyatında təsərrüfat əməkdaşlığının tam əməkdaşlıq və kommandid əməkdaşlığı formaları fərqləndirilir. Tam əməkdaşlıq əsasında fəaliyyət

göstərməkdə olan müəssisədə müəyyən təsərrüfat fəaliyyətini birlikdəhəyata keçirməyə görə iştirakçılar öz arasında müqavilə bağlayırlar. Tam əməkdaşlıq zamanı əmlakın formalaşrna mənbələri mühüm etibarilə iştirakçıların əmanətlərindən ibarət olmaqdadır

Tam yoldaşlığa əsaslanan müəssisənin yaranması zamanı nizamnamə tələb edilmir. O, təsis müqaviləsi əsasında əmələ gəlir və öz fəaliyyətini göstərməkdədir. Təsis müqaviləsini təsərrüfat əməkdaşlığını bütün iştirakçıları imzalamalıdırlar. Təsis müqaviləsində əməkdaşlıq müəssisəsinin yerləşdiyi ərazi onun adı, fəaliyyətin idarə edilməsi qaydası, əməkdaşlıq müəssisəsində yığıma yönəldilən kapitalın tərkibi və həcmi, bütün iştirakçıların pul əmanətinin məbləği göstərilir. Eyni zamanda burda tam yoldaşlıq müəssisəsi üzrə təqdim edilən əmanətlər üzrə öhdəliklər tamamlanmadığı vəziyyətlərdə iştirakçıların məsuliyyətilə əlaqədar məsələlərə belə toxunulur.

Tam yoldaşlıq müəssisəsi daxilində zərər və mənfəət onun iştirakçılarının arasında yığıma istiqamətləndirən kapitalda xüsusi çəkiyə əsasən proporsional qaydada bölüşdürülməkdədir. İştirakçının hər birinə əsasən vergi məbləğini müəyyənləşdirmək üçün onun sahib olduğu gəlir üzərinə mənfəətdən xüsusi çəki ilə əlavə olunur və bu məbləğdən vergilər hesablanır. Tam yoldaşlıq üzrə əsaslanmış sahibkarlıq müəssisəsi iştirakçıları əmlaklarının üzərində tam olaraq məsuliyyət daşımaqdadırlar (İbrahimov İ.H., İbrahimov E.R., 2004: s.37).

Sahibkarlıq praktikasında və iqtisadi ədəbiyyatlarda kommandid yoldaşlığı əksər durumlarda qarışıq yoldaşlıq forması belə adlandırılır. Burda yoldaşlıq adından sahibkarlıq fəaliyyətin reallaşdıran və öz əmlaklarına əsasən məsuliyyəti olan iştirakçılarla birgə bir yaxud bir çox iştirakçıları olur ki, onları da komandidçilər adlandırır. Komandidçilər təqdim etmiş olduqları əmanətlərin məbləğinin daxilində zərər məqsədilə riskə gedirlər. Komandidçilərin çoxu yoldaşlıq müəssisəsində sahibkarlığın gerçəkləşdirilməsində iştirak etmir. Həm tam yoldaşlıq, həm də qarışıq yoldaşlıq formalarına əsaslanmış sahibkarlıq qurumu heç bir nizamnaməyə sahib

olmurlar. Onlar iştirakçıların hamısının imzalamış olduqları təsis müqaviləsinin əsasında təşkil edilir və fəaliyyət göstərməkdədir.

Sahibkarlığın müasir təşkilat formalarından biri təsərrüfat cəmiyyətləridi. Bu cəmiyyətlərinin aşağıda göstərilən növləri ayrılır:

1. məhdud məsuliyyətli cəmiyyət,
2. əlavə məsuliyyətli cəmiyyət;
3. asılı cəmiyyət,
4. səhmdar cəmiyyəti.

Keçmiş İttifaq ölkəmizdə bazar münasibətinə keçiddə ilk dövrlərdə məhdud məsuliyyətli müəssisəsinin təsis edilməsi geniş yayılmışdır. Belə cəmiyyətlər bir, yaxud birdən çox şəxs tərəfindən təsis olunur. Bu cəmiyyətin nizamnamə kapitalı təsisçinin kapitalının xüsusi çəkisinin əsasında yaranır. Məhdud məsuliyyətli cəmiyyət iştirakçıları onun öhdəliklərinə heç bir halda cavabdehlik daşımır, qoymuş olduqları əmanətin dəyəri miqdarında cəmiyyətin fəaliyyətiylə əlaqədar zərərlik riskini öz üzərinə götürür.

Əlavə məsuliyyətli cəmiyyət iştirakçıları cəmiyyətdə təsis edilmə sənədlərinə əsasən müəyyən olunmuş əmanət dəyəri miqdarında öz əmanətlərində öhdəlik daşıyırlar, həm də cəmiyyətin ümumi fəaliyyəti ilə bağlı birgə məsuliyyət daşıyırlar. İştirakçılardan biri müflisləşdiyi halda onun öhdəlikləri digər iştirakçılar arasında uyğun proporsional qaydaya uyğun olaraq bölüşdürülür.

Müasir şəraitdə sahibkarlığın geniş yayılmış formalarından biri isə səhmdar cəmiyyəti olmaqdadır. Bu cəmiyyətlərin əksəriyyəti bələdiyyə və dövlət mülkiyyətinə əsaslanmış müəssisələrin özəlləşdirilməsi yoluylatəsis edilir. Səhmdar cəmiyyəti təsərrüfat fəaliyyətini reallaşdırmaq məqsədilə nizamnamə fondunu səhmlər buraxmaqla formalaşdıran hüquqi, həmçinin fiziki şəxslərin könüllü sazişinin əsasında yaradılmış müəssisələrdir. Səhmdar cəmiyyəti açıq, yaxud qapalı tipli səhmdar cəmiyyətləri fomasında yaradılır. Səhmləri sadəcə təsisçilər arasında bölüşdürülən, təsisçilərin əksəriyyətinin razılığıyla özgəninkiləşdirilən cəmiyyət

qapalı səhmdar cəmiyyəti hesab olunur. Səhmi müstəqil şəkildə özgəninkiləşdirilə bilən cəmiyyət isə açıq səhmdar cəmiyyəti hesab olunur (Manafov Q.N., 2000: s.20).

Dövlət əmlakına dair sərəncam vermək hüququna sahib olan idarəetmə orqanlarının yaratdıqları səhmdar cəmiyyəti istisna edilərək, səhmdar cəmiyyəti ən azı 3 fiziki və ya həmçinin hüquqi şəxs tərəfindən təsis olunur. Dövlət əmlakına dair sərəncam vermək səlahiyyətinə sahib olan idarəetmə orqanlarının yaratdıqları səhmdar cəmiyyətinin təsisçilərinin ümumi sayı məhdudlaşdırılmır. Onlar təklikdə səhmdar cəmiyyətinin təsisçisi ola bilər. Cəmiyyətin təsisçilərinin yığıncağında qəbul olunan nizamnamədə aşağıdakılar göstərilməlidir:

1. cəmiyyətin adı, hüquqi ünvanı, tipi, təsisçi və yaxud təsisçilərin tərkibi, fəaliyyət növü;

2. nizamnamə fondunun məbləği;

3. buraxılacaq səhmlərin kateqoriyası, nominal dəyəri, növü, təsisçi və yaxud təsisçilər tərəfindən alınmış səhmlərin miqdarı;

4. səhmdarlar öhdəliklərini yerinə yetirmədiyi hallarda görülən tədbirlər;

5. idarəetmə, maliyyə-təftiş, nəzarət orqanlarının tərkibi, səlahiyyətləri, fondların siyahısı, onların formalaşdırılması qaydaları.

Səhmdar cəmiyyətinin təsis edilməsində dövlət müəssisələri iştirak etdiyi zaman Maliyyə Nazirliyi də rəy verməlidir. Dövlət müəssisələrinin çevrilməyi əsasında da Səhmdar cəmiyyəti qurula bilməkdədir. Bu zaman dövlət müəssisələin səhmdar cəmiyyət üzrə çevrilmə əsasların parlament müəyyənləşdirir. Cəmiyyətdəki səhmlərə abunə yazılışı yaxud payların bölüşdürülməsi təsis müqaviləsinin və ya təsis planının əsasında gerçəkləşdirilir. Abunə yazılışının vaxtı 6 aydan artıq olmamalıdır. Abunə yazılışı üzrə iştirak edən şəxslərin hər biri səhmin nominal həcminni 10 faizini əvvəlcədən ödəməlidirlər. Təsisçilər bu şəxsə bir miqdar səhmlərin satılması haqda yazılı öhdəlik verirlər.

Elanda qeyd edilmiş müddət keçəndə abunə yazılışı sona çatır. Bu müddətdə səhmlərin 60 %-nə abunə yazılmamışdırsa, cəmiyyətin təsis olunması baş tutmamış

sayılır və həmçinin abunəçilərə ödəmiş olduqları məbləğ, və ya verdikləri əmlak 30 günün ərzində geri verilir.

Təsis yığıncağının çağırılması gününə kimi abunəçilər əvvəlcədən ödənilmiş məbləği nəzərə alaraq səhmin nominal həcminin 30 faizini ödəməlidirlər. Təsisçilər həmin şəxslərə müvəqqəti şəhadətnamələr verirlər.

Qapalı tipli cəmiyyət içərisində təsisçilər təsis yığıncağının çağırılma gününə kimi səhmlərin nominal qiymətinin 50 %-ni ödəməlidir. Cəmiyyət təsis yığıncağı abunə yazılışı bitəndən sonra 2 ay müddətində çağırılır. Göstərilən müddətdə təsis yığıncağı ilə də keçirilmədikdə abunəçi öz səhmini geri ala bilər. Təsis yığıncağı zamanı abunəçilərin ən az60 %-i iştirak etməlidi. Birinci təsis yığıncağı zamanı yetərsay olmadıqda təsisçilər təkrar yığıncağa çağırırlar. Bu zaman abunəçilərin ən az50 %-i iştirak etməlidi. Əgər ikinci dəfə belə yetərsay yığılmasa, bu zaman cəmiyyət baş tutmamış sayılır.

Cəmiyyətin yaradılması, müşahidə şurasının, icra-nəzarət orqanlarının seçilməsi və təsisçilərə imtiyazlar verilməsi üzrə qərarlar yığıncaqda iştirak edən şəxslərin 3/4 səsi çoxluğu ilə qəbul edilir. Başqa məsələlər də adi səs çoxluğunun nəticəsində həll olunur. Cəmiyyət qanunvericilik üzrə nəzərdə tutulmuş qaydada dövlətin qeydiyyatından keçmiş olduğu vaxtdan bir ilmüddətində səhmdar abunənin özü yazılmış olduğu səhmlərin nomnal dəyərin tamamilə ödəməlidi.

Səhmdar abunənin özü yazıldığı payların dəyərin təsis yığıncağında müəyyən edilmiş vaxtda, ancaq 1 ildən atıq olmamaqla tamanilə ödəməklə onları satın almalıdı. Əks halda cəmiyyət nizamnaməsində digər hal nəzərdə tutulmayıbdırsa, səhmdar gecikdirilən miqdarın 10 %-i həcmində əlavə vəsaiti ödəməlidi. Səhmlərin satınalması müddəti gecikdirilən zaman cəmiyyət onları müstəqil şəkildə satması mümkündür.

Cəmiyyət ilk gəlirinin həcmindən səhmdar sahib olduğu səhm yaxud da müvəqqəti səhm şəhadətnaməsi qiymətinə müvafiq olaraq dividend almaqdadır. Hər bir səhm üzrə düşmüş dividend həcmi səhmdarların ümumi yığıncağı zamanı

müəyyən olunur. Səhmdar cəmiyyətinin səhmdarları üzrə ümumi yığıncağın qərarları və səhmlərdə dividendlər rüblərinin əsasında ödənilməsi mümkündür.

Səhmdarların hər biri sahib olduğu səhmlər sayına əsasən səs verməkdədir. İmtiyazlı səhmlər sahib olan səhmdarın nizamnamədə göstərilmiş hallardan başqa, səs vermək hüququna sahib deyildir.

Adi səhmə sahib olan səhmdar payların əldə olunması və ya payların dəyərinin ödənilməsində öhdəlikləri pozduğu zaman, sahib olduğu səhmlərin sayından asılı olmamaqla səsvermə hüququndan məhrum olunur. Hər bir səhmdarın ümumi yığıncaqdakı iştirakı, müşahidə şurası və bununla yanaşı idarə heyəti üzvlərindən izahat tələb etmə, təkliflər vermə və öz iradlarını bildirmə hüququ vardır (Musayev V.R., Seyfullayev İ.Z., 2000: s.107).

Cəmiyyətin nizamnamə fondunun ən azonda bir hissəsinə sahib olan səhmdarlar ümumi yığıncaq keçirilməsini tələb edən zaman idarə heyəti həmin tələbi yerinə yetirməlidi. İdarə heyət həmin tələbi 30 gün müddətində yerinə yetirməyən zaman müşahidə şurası 30 gündə cəmiyyətin ümumi yığıncağını çağıra bilir.

Cəmiyyət nizamnamə fondunun ən az onda bir qisminə sahib olan səhmdar öz məqsədi və dəlillərini göstərərək müşahidə şurasından cəmiyyətdə sahibkarlıq fəaliyyətinin yoxlanılmasın tələb edə bilər. Həmin tələb 30 gündə yerinə yetirilməyən zaman səhmdarlar ümumi yığıncaq üzrə müraciət edə bilərlər. Cəmiyyətdə nizamnamə fondunun minimal həcmi açıq tipli cəmiyyətlərə 10 mln. manat, qapalı tipli cəmiyyətlərə isə 5 mln. Manat həcmində müəyyən edilir. Elan edilmiş nizamnamə fondunun həcmi bir il ərzində formalaşmalı və cəmiyyətin səhmlərin dövlət qeydiyyatından keçirməlidi.

Cəmiyyətin nizamnamə fondun o zaman çoxalda bilər ki, buraxılan səhmlərin hamısı nominal həcmindən az olmamaqla ödənilən olsun. Nizamnamə fondunun özü təzə səhmlərin buraxılmasının, istiqraz vərəqələrin səhmlərə dəyişdirilməsinin və səhmlərdə nominal həcmin artırılmasının nəticəsində ilə artırılmaqdadır. Cəmiyyətdə zərərin ödənilməsi üçün yeni istiqrazların buraxılması qadağan olunur.

Açıq tipli səhmdar cəmiyyətinin özü Maliyyə Nazirliyinin müəyyən etdiyişəkildə hər il öz fəaliyyəti haqqında kütləvi informasiya vasitələrində məlumatlar dərc etdirməlidir. Dərc edilmiş məlumatın dürüstlüyünə səhmdar cəmiyyəti, həmçnini onun məsul işçiləri məsuliyyət daşımaqdadırlar.

Səhm bölünməz olmaqdadır. Bir səhm bir neçə insana məxsus olan zaman səhmdarlar hər biri cəmiyyətin qarşısında bir fərd olaraq çıxış edir. Səhm ancaq onların dəyəri tamamilə ödənilən zaman verilməkdədir. Fiziki şəxslərin hər biri yalnız adlı səhmlərə sahib ola bilir. Cəmiyyətin özü eyni zamanda imtiyazlı səhmlər buraxa bilir. Onlarda ümumi həcm cəmiyyət nizamnamə fondu üzrə 10 faizdən artıq ola bilməz. Cəmiyyət nizamnaməsində digər vəziyyətlər nəzərdə tutulmayan zaman imtiyaza malik səhm sahibləri səsvermə hüququna sahib olmurlar. Cəmiyyətdə nizamnamədə nəzərdə tutulan həcmdə ehtiyat fondu yaradılmaqdadır. Ehtiyat fondunun yaradılması cəmiyyətdə balans mənfəətindən ayırmaların hesabına yaradılır. Ayırmaların həcmi nizamnamədə gəlirin 5-lə10 faiz arasında nəzərdə tutulmalıdı.

Cəmiyyət səhmdarların ona vermiş olduğu əmlakın, təsərrüfat fəaliyyətinin nəticəsində istehsal edilmiş məhsulun, əldə edilmiş gəlirlərin, eyni zamanda qanunvericilik üçün yol verilmiş əsaslar ilə əldə olunmuş əmlak sahibidir. Səhmdarların hər biri cəmiyyətdə nizamnaməsi fonduna öz payların mənzil, avadanlıq, dəyərli əşya, qiymətli kağızlar, torpaq, su və başqa təbii ehtiyyatlardan istifadənin hüquqları, maliyyə vəsaiti, eyni zamanda xarici valyut formasında verə bilər.

Cəmiyyətdə ali idarəetmə orqanı səhmdarlarının yığıncağıdır. Onun səlahiyyətinə aşağıda göstərilənlər aiddir:

1. cəmiyyət fəaliyyətinin başlıca yönlərini müəyyənləşdirmək, tərtib edilmiş planları, hesabatları təsdiq etmək;

2. cəmiyyətin nizamnaməsini dəyişdirmək;

3. müşahidə şurasının tərkibini, onun idarə heyətini, maliyyə-təftiş komissiyasını seçmək, geri çağırmaq;

4. illik nəticələri, maliyyə-təftiş və nəzarət komissiyasının hesabatlarını təsdiqləmək;

5. mənfəətin bölüşdürülməsi, zərərin ödənilməsi qaydalarını müəyyənləşdirmək;

6. nümayəndəlikləri və filialları yaratmaq, onların əsasnamələrini təsdiqləmək, fəaliyyətinə xitam vermək;

7. cəmiyyətin vəzifəli vətəndaşlarının əmlak məsuliyyətinə cəlb olunmasıbarədə qərarlar qəbul etmək;

8. cəmiyyətin təşkilati strukturunu, onun daxili qaydalarını təsdiq etmək;

9. cəmiyyətin, onun filiallarının, onun nümayəndəliklərinin və həmçinin vəzifəli şəxslərinin əmək haqlarını müəyyənləşdirmək;

10. cəmiyyətin fəaliyyətini dayandırmaq.

Ümumi yığıncaq səsvermə hüququna sahib olan səhmdarların ən azı 60 faizi iştirak etdiyi zaman səlahiyyətli sayılır.

Aşağıda göstərilən məsələlər haqqında qərarlar səhmdarların yığıncağında iştirak etmiş səhmdarların 3/4 səs çoxluğunun nəticəsində qəbul edilir:

1. cəmiyyət nizamnaməsinin dəyişməsi:

2. cəmiyyət fəaliyyətinə xitamın verilməsi;

3. filiallar yaradılması və onların fəaliyyətinin dayandırılması.

Ümumi yığıncaqlarda səsvermə bir səs prinsipiylə gerçəkləşdirilir. İdarə heyəti üzrə nəzarət etmə məqsədilə cəmiyyət içərisindəən azüç fiziki şəxslərdən təşkil olunmuş müşahidə şurası yaradılmaqdadır. Onlar cəmiyyət səhmdarları və qıraq şəxslərdən seçilir. Cəmiyyətdən bağlı olan müəssisə nümayəndəsi, dövlətin hakimiyyətinin, həmçinin idarəetmə orqanların vəzifəli şəxslər müşahidə şurasına üzv ola bilməz. Həmçinin müşahdə şurası üzvü idare heyəti üzvü, cəmiyyət hüquqşünas və müvəkkili ola bilməzdir. Cəmiyyətdə cari fəaliyyəti üzrə rəhbərliyin özü ən az üç nəfərdən təşkil olunmuş idarə heyətinin tərəfindən gerçəkləşdirilir. İdarə heyətinə cəmiyyət səhmdarı, həmçinin kənar şəxslər seçməsi mümkündür. Olaraa sədrlər rəhbərlik edir. İdarə heyəti səlahiyyətləri cəmiyyət nizamnaməsiylə

müəyyənləşdirilir. Cəmiyyətdə təsərrüfat-maliyyə fəaliyyəti üzrə olan nəzarət onun səhmdarları olmayan fiziki şəxslərin hər birindən seçilən maliyyə-təftiş komisiyası gerçəkləşdirir. Onun rəyləri olmasa, səhmdarların ümum yığıncağının özü illik balanları təsdiq edə bilməzdir.

Maliyyə-təftiş komissiyasının aşağıda göstərilən vəziyyətlərdə cəmiyyətdə maliyyə-təsərrüfat fəaliyyətinin təftiş edilməsini gerçəkləşdirir (Qasımov F.H., ismayılov İ.H., Qasımova L.F., 2008: s. 54):

1. təsərrüfat ili başa çatdıqda;
2. səhmdarların ümumi yığıncağının tələbiylə;
3. səslərin1/10 hissəsinə sahib olan səhmdarların tələbi ilə;
4. müşahidə şurası ilə idarə heyəti tələbiylə,
5. nizamnamədə nəzərdə tutulan başqa hallar baş verdikdə.

Cəmiyyət öz öhdəliklərin yerinə yetirilməsi və borclarının ödənilməsi zamanı bütün əmlakıyla məsuliyyət daşıyır. Cəmiyyət öhdəliklərinin yerinə yetirilməsi və borclarına əsasən səhmdarlar ancaq öz səhmlərinin həcmində məsuliyyət daşıyır.

Cəmiyyət fəaliyyətinə xitamın verilməsi “Müəssisələr barədə” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq gerçəkləşdirilir. Cəmiyyət ləğv edilən zaman ləğvetmə komissiyasının kreditorlarla hesablamaları aşağıda göstərilən ardıcıllığa əməl edərək həyata keçirir:

1. əmək haqqının verilməsi;
2. büdcə ilə hesablaşmaların aparılması;
3. başqa kreditor borcların ödənilməsi;
4. istiqrazların ödənilməsi;
5. imtiyazlı səhmlərin ödənilməsi;
6. adi səhmlərin ödənilməsi.

İnkişaf edən dövlətlərdə sahibkarlığın müasir formalarından qız və asılı cəmiyyətlərin hər biri geniş yayılmışdır. Qız müəssisələr dediyimiz zaman elə təsərrüfat cəmiyyətləri anlaşılır ki, onlar başlıca olaraq təsərrüfat cəmiyyəti və yoldaşlıq müəssisəsi nizamnamə kapitalı üzrə həlledici xüsusi çəkiyə sahib olmaqla

bu və ya başqa şəkildə bu cəmiyyətin qəbul etmiş olduğu qərarlarda iştirak edir. Qız cəmiyyətlərin özü əsas cəmiyyətlərin (yoldaşlıqların) borclarına əsasən məsuliyyət daşımır. Həmçinin əsas müəssisələr qız cəmiyyətinin həyata keçirdikləri əməliyyatlar üzrə birlikdə məsuliyyət daşıyırlar.

Asılı cəmiyyətlər isə bu və ya bununla yanaşı digər dərəcədə iqtisadi statusa sahibdir. Sahibkarlıq müəssisəsinə məxsus təşkilati-hüquqi formalardan biri isə istehsal kooperatividir. İstehsal kooperativi ilə artellər dediyimiz zaman birgə istehsal və ya başqa təsərrüfat fəaliyyətini gerçəkləşdirmək üçün şəxsi əmək və başqa iştirak növünə əsaslanan şəxslərin könüllü birliyi nəzərdə tutulmaqdadır. İstehsal kooperativləri kooperativ üzvlərin əmlakından pay haqları yığılması yolu ilə yaradılmaqdadır. Həmin kooperativin fəaliyyət sferaları istehsalla birgə, emal, sənaye, aqrar təsərrüfat və başqa məhsul satışı, məişət xidmətləri, başqa xidmət göstərmişlərdən belə ibarət olması mümkündür. İstehsal kooperativinin tosis sənədləri üzrə onun üzvlərinin ümumi yığıncağı zaman təsdiq edilən nizamnaməsi daxil olmaqdadır. İstehsal kooperativində ən əsas xüsusiyyəti onun səhmləri buraxma hüququndan məhrum edilməsi və ümumi yığıncaq daxilində qərarların qəbul olunmasında kooperativin hər bir üzvün bir səsə sahib olmasıdır.

Kommersiya müəssisəsi təşkilati və hüquqi formaları daxilində dövlət və bələdiyyə quruluşu olan unitar müəssisələrin hər biri önəmli yer tutmaqdadır. Unitar müəssisə dediyimiz zaman, mülkiyyətçilərə təhkim edilmiş əmlaka əsasən xüsusi mülkiyyət hüququ olmayan kommersiya təşkilatı nəzərdə tutulmaqdadır. Unitar müəssisəsinin əmlakı bölünməz olmaqdadır. Əmlak müəssisənin işçiləri, həmçinin başqa şəxslərin arasında bölüşdürülməsi mümkün deyil. Unitar şəkilli müəssisələr ancaq dövlət və bələdiyyə müəssisəsi ola bilər. Unitar müəssisələr əmlakı dövlətin və ya bələdiyyənin mülkiyyətində olmaqla operativ idarəetməyə əsasən fəaliyyət göstərirlər.

## 1.3. Sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin zəruriliyi və reallaşma mexanizmi

Sahibkarlıq fəaliyyəti ilə əlaqəli məsələlərin həllinə nəzarəti gerçəkləşdirən dövlət orqanlarının vəzifəli şəxsləri və mütəxəssislərinə sahibkarlıqla məşğul olmaq qadağan sayılır. Sahibkarlıq fəaliyyətinin qanun çərçivəsi üzrə gerçəkləşdirilən bütün formaları üçün icazə verilməkdədir. Mülkiyyət, təşkilati və hüquqi formasından aslı olmamaqla sahibkarlıq fəaliyyətinin bütün formaları eyni hüquqa sahibdirlər. Sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılması üçün aşağıda göstərilən vəziyyətlərdə, yəni qanunçuluq gözlənilməsi, dövlətin və əhalinin təhlükəsizlik və müdafiə olunması, vergi, qiymət, həmçinin antiinhisar tənzimlənməsi həmçinin sosal təminatların təqdim edilməsi, ekologiya, sanitariyadan, yanğından mühafizə və arxitektura normaları gözlənməsi və tarixi abidələrdən hər birinin mühafizə edilməsi üzrə yol verilir (Əhmədov M.A., Hüseyn A.C., 2011: s. 26).

Öz fəaliyyətini həyata keçirmək məqsədilə sahibkar aşağıda göstərilən hüquqlara malikdir:

1. istənilən müəssisələr təsis etmək, idarəetmə orqanlarında vəzifə tutmaq, bu orqanların hər bir işində iştirak etmək;

2. təsərrüfat-maliyyə fəaliyyətini müstəqil şəkildə həyata keçirmək;

3. işçiləri işə qəbul etmək, işdən azad etmə, işçi əməyinin ödənilmə qaydasını müəyyənləşdirmək;

4. öz məhsulları üçün qiymətlər müəyyənləşdirmək;

5. sahibkarlıq fəaliyyətində əldə olunan mənfəətdən vergilər və başqa icbari ödənişlər çıxılandan sonra qalan hissədən sərbəst formada istifadə etmək.

Bunlardan başqa, sahibkarlar hüquqi şəxslərə dair olan başqa hüquqlardan da istifadə edə bilərlər. Sahibkarın başlıca vəzifələri aşağıdakılardan ibarətdir:

1. qüvvədə olan qanunvericilikdən, bağladığı müqavilələrdən irəli gələn vəzifələri yerinə yetirmək;

2. işçinin əmək haqqını qanunvericilik ilə müəyyən edilmiş minimum miqdardan az olmayan səviyyədə ödəmək;

3. qanunvericilikdə müəyyən olunmuş vergiləri, sosial müdafiə və başqa fondlara ayırmaları ödəmək;

4. qüvvədə olan aktları rəhbər tutmaqla ekoloji təhlükəsizliyin, təhlükəsizlik texnikasının, əməyin mühafizəsinin, istehsal gigiyenasının, sanitariyasının təmin olunması, arxitektura abidələrinin, başqa tarixi abidələrin mühafizə edilməsi sahəsində tədbirlər görmək;

5. işçilərə qüvvədə olan müvafiq qanunvericiliy, müqavilələrə uyğun əmək şəraittəşkil etmək;

6. haqsız rəqabət metodlarından istifadə edilməsinə yol verməmək, antiinhisar qanunvericiliyinə riayət etmək;

7.öz fəaliyyəti barədə dövlət, maliyyə və statistika orqanlarına müəyyən olunmuş formada hesabat vermək.

2018-ci ildəki sərəncamına əsasən “Azərbaycanda xalça sənətinin qorunması və həmçinin inkişafı üzrə 2018-2022-ci il üzrə Dövlət Proqramı” təsdiq olunmuşdur. Dövlət Proqramının başlıca məqsədi xalçaçılıq sahəsi üzrə maddi və mədəni irsin müdafiəsi və davamlı inkişafıdı.

# III FƏSİL. REGİONLARDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAFINA DÖVLƏT MEXANİZMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Regional siyasətin işlənib hazırlanmasının dövlət mexanizmi və GZİT təhlili

Regional siyasət əsasən sosial-iqtisadi inkişafda milli strategiyasının tərkib hissəsi olmaqla, tamamilə hakimiyyətdə fəlsəfi konsepsiyaya əsaslanır. Ancaq, bununla belə ayrı-ayrı ölkələr çərçivəsində onların subyektiv şərhi üçün müvafiq çox zaman universal ümumiqtisadi kateqoriya və qanunlara (misal üçün, dəyər qanunu) istinad olunur, belə ki, milli regional siyasətdə hər cür özünəməxsus xüsusiyyət dövlətin tipindən asılı olmadan bir sıra ümumi qanunauyğunluqların gerçəkləşməsini ləğv etmək üçün qadir deyildir.

İndiki dövrdə regional siyasətin özü iqtisadi rayonların kompleks inkişaf etməsi, rayonun öz yerli məhsullar üzrə tələbatının ödənilməsin optimal təmin olunması, ümumdövlət miqyası üzrə milli iqtisadiyyat mənafeyinin nəzərə alınması nöqteyi-nəzərdən xammalın kompleks emalı, həmçinin hazır məhsul istehsalının daha çox genişləndirilməsini nəzərdə tutmalıdır ("Azərbaycan Respublikası bölgələrin sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqram" (2003-2008-ci illərdə).

Son illər istər rəsmi sənədlərdə, istərsə də elmi nəşrlər içərisində regional siyasətin inkişaf etdirilməsi çağırışları səslənsə də, bizim ölkədə hələlik həmin siyasət formalaşır. Azərbaycan Respublikasının Prezident İ. Əliyevin 11-i fevralda 2004-cü il tarixində imzalamış olduğu "Azərbaycan Respublikasının bölgələrinin sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" (2004 -lə 2008-ci illərdə) vasitəsilə onun təməli qoyulubdur.Bu proqramdan qeyd olunmuşdur (Azərbaycanda regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2004-2008-ci illərə) təsdiq olunması barədə Azərbaycan respublikasının prezidentinin fərmanı, (2004):

Azərbaycanda biznes mühitinin yaxşılaşdırılmasına istiqamətlənmiş kompleks tədbirlər davam etdiriləcək, onların başlıca istiqamətləri aşağıdakılardır:

1. bölgələrdə sahibkarlığın inkişaf etdirilməsinə dövlət maliyyə dəstəyinin gücləndirilməsi;

2. Regionlarda potensial imkanlar barədə məlumat bazasının yaradılması;

3. sahibkarlar üçün məsləhət xidmətləri, marketinq xidmətləri, məlumat dəstəyi və başqa servis mərkəzlərinin yaradılması;

4. bölgələrdə turizmin inkişaf etdirilməsi;

5.bölgələrdə yarmarkaların təşkil edilməsi;

6. Məhsul keyfiyyətinə laboratoriya nəzarətinin təkmilləşdirilməsi;

7. Yerli ixtisas nəzərə alınaraq bölgələrdə olan işsiz insanlar üçün peşə təhsili mərkəzlərinin təsis edilməsi;

8. sahibkarlığın inkişafına istiqamətlənmiş gömrük və vergi siyasətinin həyata keçirilməsi;

9. təbii inhisarlar üçün tariflərin tənzimlənməsi;

10. sahibkarlıq fəaliyyətinə müdaxilənin qarşısının alınması;

11. beynəlxalq praktikada uğurlu şəkildə sınaqdan keçirilmiş sahibkarlıq fəaliyyət növlərinin-ipoteka, françayzinq, lizinq kimi dəstək və inkişafı;

12. dövlətlə sahibkar arasında olan dialoqun genişləndirilməsi.

Regional siyasətin əsasını müəyyənləşdirərkən yalnız bölgələrin xüsusiyyətlərini deyil, eyni zamanda iqtisadi islahatların vacib sahələrinin regional səviyyədə həyata keçirilməsinin, yerli özünüidarəetmənin inkişafı və təkmilləşməsi, sosial problemlər və təbiətin davamlı istifadəsi nəzərə alınmalıdır. Bazar iqtisadiyyatına keçidlə bağlı olaraq bölgələr və mərkəz arasında iqtisadi əlaqələrin yaxşılaşdırılması məsələsi ortaya çıxır. Bu isə özü-özlüyündə regional siyasətin vəzifələri və vəzifələrini nəzərəçarpan dövr üçün tənzimləmək ehtiyacına səbəb olur. Bu mərhələdə bölgələrin sosial-iqtisadi bərpası siyasəti və Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün prioritetlər müəyyənləşdirildi.

Bu siyasət müxtəlif iqtisadi bölgələrin sosial-iqtisadi inkişafının əsas istiqamətlərini müəyyənləşdirir, sonra onların həyata keçirilməsi üçün mümkün tədbirlərin seçilməsini, habelə onların həyata keçirilmə vaxtını, mərhələlərini və ən başlıcası həyata keçirilməsini təmin edir.

Real vəziyyətin dəyərləndirilməsi mərhələsində strateji hədəfləri seçmək və onlara çatmaq üçün taktiki tədbirləri müəyyən etmək, xüsusən təşkilati, infrastruktur və resurs çatışmazlıqlarını və onların həlli yollarını müəyyən etmək vacibdir.

İqtisadi strategiya üzrə regional siyasətin yeri dövlətimizin sosial-iqtisadi inkişafı zamanı artan rolu ilə müəyyən olunur. Regionların regional iqtisadi sistemlərin özünü tənzimləməsi əsasında fəaliyyət göstərən azad iqtisadi subyektlərə çevrilir. Regional siyasət regional aspektləri sistematik şəkildə ümumiləşdirmiş ümumi iqtisadi siyasətdə bir hissəsidir.

Dünyada baş vermiş qloballaşma prosesləri həm bununla yanaşı milli iqtisadiyyat, həm də onun bölgələrinin inkişafına güclü təkan verməkdədir. Hazırda müstəqilliyimizin ilk on ilində ölkəmizdə əldə olunan siyasi sabitlik, Azərbaycanın dinamik inkişaf mərhələsinə qədəm qoymasını müəyyən edən ən vacib və həlledici

amil hesab edilməlidir. Dünya təcrübəsi, xüsusən keçid iqtisadiyyatı olan ölkələr, birmənalı şəkildə iqtisadi inkişafın bütün amillərinin, o cümlədən resurs amillərinin yalnız əlverişli, sabit siyasi vəziyyət olduğu təqdirdə səmərəli şəkildə həyata keçirilə biləcəyi qənaətinə gətirirlər. Bu baxımdan, ölkəmizdə keçidin ilkin mərhələsində yaranan siyasi sabitlik bugünkü uğuru təmin edən və gələcəyə yönəlmiş ən güclü və ən böyük başlanğıc kapitalı hesab edilməlidir (İbrahimov İ.H., 2007: s.12).

Milli iqtisadiyyatın inkişafına belə bir yanaşma, keçid dövründə sistemin dəyişdirilməsi ilə əlaqədar ölkəmizdə formalaşan və həyata keçirilən strategiyada ən əsas prins hesab olunmalıdır. Vurğulamaq gərəkdir ki, regional inkişaf təkcə iqtisadi rayonlarda istehsal və xidmətlərin kəmiyyət artımı ilə deyil, bölgələrdə müvafiq institusional dəyişikliklərin, tənzimləmə bazası və təşkilati quruluşun həyata keçirilməsindən ibarət çoxşaxəli, mürəkkəb, sistemli, həmçinin dinamik bir prosesdir. İnkişaf yolu ilə insan potensialının dayanıqlı inkişafını təmin etmək konsepsiyasının tələblərinə müvafiq olaraq, bu ərazidə məskunlaşan insanların iqtisadi təfəkkürü, adət və ənənələrində köklü keyfiyyət dəyişiklikləri də nəzərdə tutulur.

Son zamanlar ölkəmizdə milli iqtisadiyyatın inkişafı, dayanıqlı xarakteri və neft, həmçinin qeyri-neft amillərinin əsasında inkişaf problemləri ilə bağlı bəzi nəzəri və praktik tədqiqatlar aparılmışdır. Bununla birlikdə, milli iqtisadiyyatın tarazlı dayanıqlı inkişafın təmin etmək üçün regional araşdırmalara böyük ehtiyac var. Eyni zamanda, neft sektorunun ölkə iqtisadiyyatı üçün əhəmiyyəti ilə birgə, qeyri-neft sahəsinin bir hissəsi olaraq kənd təsərrüfatı sahəsinin dayanıqlı davamlı inkişafının təmin olunması regional iqtisadiyyatın inkişafı ilə birbaşa əlaqəlidir. Buna görə bölgə iqtisadiyyatının fəaliyyəti bölgə əhalisinin ehtiyaclarını, iqtisadiyyatın quruluşunu daxili və xarici amillərin tələblərinə uyğunlaşdıraraq regional maraqların fəal şəkildə həyata keçirilmə prinsipləri üzrə üstünlük verərək üç yöndə işləməlidir. Həmin fəaliyyət əsasən regional idarəetmə üzrə onun funksional istiqamətin müəyyənləşdirəcəkdir. Bu, iqtisadi səmərəlilik, sosial həmrəylik, ətraf mühit və məsuliyyət meylini gücləndirəcəkdir. Bu əsasda, fərdi,

yerli, regional, milli, həmçinin beynəlxalq səviyyədə davamlı inkişafın fərqli xüsusiyyətlərini müəyyən etmək mümkün olacaqdır. Məhz bu kontekstdə bölgələrdə kənd təsərrüfatı sektorunun dayanıqlı inkişafı məsələsinə xüsusi diqqət yetiriləcək və dövlətin iqtisadi, həmçinin ərzaq təhlükəsizliyinin təmin olunmasında rolu nəzərdən keçiriləcəkdir.

Bildiyiniz kimi, bu gün Azərbaycanda regional inkişaf əsasən kənd təsərrüfatının inkişafı ilə əlaqələndirilir. Bu baxımdan kənd təsərrüfatının davamlı inkişafının xüsusiyyətlərini qida təhlükəsizliyi ilə əlaqələndirmək, bu sahədə çalışanların sosial problemlərini həll etmək, haqsız rəqabəti, inhisarları, çevik informasiya xidmətlərini aradan qaldırmaq mümkün olacaqdır. Bölgənin tarazlı inkişafı yoxsulluqdan əziyyət çəkənlərin sayını minimuma endirməklə, daxili və xarici bazarlar üçün məhsul və xidmətlər istehsal etməklə orada yaşayan əhali üçün layiqli həyat tərzinin formalaşma səviyyəsini müəyyən etməklə müəyyən edilə bilər. Hal-hazırda ölkə iqtisadiyyatının uğurunda bölgələrin tarazlığını təmin etmək mexanizmində milli iqtisadiyyatın davamlı inkişafı üçün bir sıra elmi mülahizələrin və praktiki tövsiyələrin irəli sürülməsi vacibdir. Buna görə, güman edə bilərik ki, əslində regional inkişaf dövlətin qlobal və milli hədəflərə çatmaq üçün bir vasitə olaraq kənd təsərrüfatında dayanıqlı inkişafı təmin etmək rolunu nəzərə almaq üçün vacibdir. Tarazlıqların və subsidiyaların kənd təsərrüfatı sektorunun davamlı inkişafının ən vacib amilləri kimi üstünlüklərini və həmçinin mənfi cəhətlərini nəzərə alaraq öyrənilməsinin dünya təcrübəsini öyrənmək və bu istiqamətdə qiymət siyasətinin tətbiqinə üstünlük vermək lazımdır. İstehsal olunan malların qiymətlərini müxtəlif qiymətləri fərqləndirərək qiymət artımından qorumaq üçün kənd təsərrüfatı məhsullarının qiymət səviyyəsini inflyasiya səviyyəsindən asılı olaraq güzəştli qiymətlərlə vaxtaşırı nəzərdən keçirmək və yaxşılaşdırmaq lazımdır.

Kənd təsərrüfatı sektorunun dayanıqlı inkişafının iqtisadi təminatları arasında dövlətin fəaliyyətini planlaşdırmağı xüsusi vurğulamaqla kənd təsərrüfatının inkişafı üçün bir planın hazırlanmasına xüsusi diqqət yetirmək lazımdır.

Ümumiyyətlə, kənd təsərrüfatının davamlı inkişafına kömək edən müxtəlif amillər, xüsusən də infrastruktur, kənd təsərrüfatı sığortası, xarici iqtisadi əlaqələr, elmi və texnoloji tərəqqinin nailiyyətlərindən istifadə zəruridir.

Hazırda İlham Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının vacib istiqamətlərindən biri də neft strategiyasının gerçəkləşdirilməsindən əldə olunan gəlirlərin bölgələrin dayanıqlı iqtisadi potensialına çevrilməsinə əsaslanaraq bölgələrin inkişafı və qeyri-neft sektoru ilə əlaqələndirilir. Bu gün vacib bir dövlət siyasətinin ölkənin bütün bölgələrində qeyri-neft sahəsinin inkişaf etməsi üçün səmərəli şərait yaratmaqla yüksək inkişafını təmin etmək olduğunu söyləmək mübaliğə deyil. Bölgələrdə sosial-iqtisadi inkişafın inkişafı və təbliği, bəslənmənin bölgənin daxili təbii sərvətlərinə təsirinin artması, bölgəyə gətirilməsi İstehsal, əmək tələb edən və kapital qoyuluşları kimi təbii sərvətlərdən gəlir əldə etmək üçün imkan verir. Təcrübəli mənbələr bazarı bölgəyə və dünyaya yaxınlaşır ("Azərbaycan Respublikasının regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramın 2009-2013-cü illərdə təsdiq olunması barədə" Azərbaycan Respublikasının Prezidenti Fərmanı, 2009).

Regionların sosial-iqtisadi inkişafıyla əlaqədar son illərdə qəbul edilmiş dövlət proqramları icra edilməsi ölkə bölgələrinin inkişafını keyfiyyətcə yeni mərhələyə daşımaq üçün önəmli əhəmiyyət daşıyır. Bölgələrin inteqrasiyalı inkişafı sahəsində 2004-cü ildə başlanmış hədəf siyasətinin davamı olmaqla "Azərbaycan Respublikasının regionlarının 2014-2018-ci illər sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı" hazırlanıbdır. Azərbaycan Respublikasının regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafa dair Dövlət Proqramının icra edilməsi dövlət iqtisadiyyatının inkişafı, makroiqtisadi sabitliyin təmin edilməsi, bölgələrdə sahibkarlığın genişləndirilməsi, yeni müəssisə və iş yerlərinin yaradılması, genişmiqyaslı infrastruktur layihələri və kommunal xidmətlər üçün əhəmiyyətlidir. vətəndaşların rifah halının daha çox yaxşılaşmasına və yoxsulluğun azaldılmasına səbəb olan təhsil səviyyəsinin yüksəldilməsində müstəsna rol oynamışdır. (Azərbaycan Respublikasının bölgələrinin sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı (2014-2018-ci illərdə) təsdiq olunması barədə Azərbaycan respublikasının prezidentinin fərmanı, (2014).

Dövlət Proqramında qarşıya qoyulmuş ən əsas məqsədə çatmaq üçün bölgələrdə infrastrukturun daha da yaxşılaşdırılması, o cümlədən dövlət xidmətlərinin göstərilməsi, ixrac yönümlü və rəqabətqabiliyyətli məhsul istehsalında sahibkarlığın inkişafının sürətləndirilməsi, xüsusilə kənd yerlərində məşğulluğun artırılması və yoxsulluğun azaldılması mühüm vəzifələrin icrası üçün nəzərdə tutulmuşdur.

Gömrük siyasətinin Azərbaycan iqtisadiyyatının qlobal iqtisadi məkana inteqrasiyasında, ölkənin iqtisadi təhlükəsizliyini və daxili bazarın qorunmasında rolu xeyli artır. Müdafiənin gücləndirilməsi, gömrük infrastrukturunun müasirnləşdirilməsi və maddi-texniki bazanının gücləndirilməsi 2014-2018-ci illər gömrük siyasətinin başlıca prioritetləri olacaqdır.

İqtisadiyyat sahəsində maliyyə vasitəçilərinin rolunu dəstəkləmək üçün bank sisteminin likvidliyini lazımi səviyyədə saxlama siyasəti davam etdirildi və qeyri-neft sahəsinin davamlı inkişafı, regional inkişafın sürətlənməsi, sahibkarlığın genişləndirilməsi və yoxsulluğun azaldılması ilə iqtisadiyyatın şaxələndirilməsində bank sisteminin rolu səməərəli dərəcədə artırıldı.

Ölkədə sahibkarlıq fəaliyyətinin inkişafı üçün iş mühitinin daima yaxşılaşdırılmasının nəticəsində yüksək keyfiyyətli, ixrac yönümlü və rəqabətqabiliyyətli məhsulların istehsalı iqtisadi inkişafa dair dövlət strategiyasının əsas prioritetlərindən biridir. Bu sahədə gerçəkləşdirilən dövlət siyasəti sahibkarlıq üçün yaradılan iş mühitinin daha da yaxşılaşdırılmasına, dövlətin qorunmasının yaxşılaşdırılmasına və dövlətlə sahibkar arasında daha yaxşı münasibətlərin təmin edilməsinə yönəlmişdir. İnkişaf proqramına əsasən, növbəti illərdə sahibkarlığın inkişafı üçün müəyyən tədbirlər həyata keçirildi (Azərbaycan Respublikasında regionlar sosial-iqtisadi inkişaf etməsinə dair Dövlət Proqramının (2014-2018-ci illərdə) təsdiq olunması barədə Azərbaycan respublikasının prezidentinin fərmanı, 2014):

1. sahibkarlıq fəaliyyətini tənzimləyən hüquqi-normativ bazanın təkmilləşdirilməsi üzrə işlərin davamı;

2. bölgələrdə sahibkarlara maliyyə yardımının daha da yaxşılaşdırılması;

3. Müasir bazar infrastrukturu mexanizmlərinin inkişafını gücləndirmək daxil olmaqla, sahibkarlığın istehsal, sosial və bazar infrastrukturunun yaxşılaşdırılması;

4. Bölgələrdəki kiçik, orta, böyük müəssisələr, habelə əməkdaşlıq və istehsal arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da genişləndirilməsi və gücləndirilməsi səylərinin dəstəklənməsi.

Aparılan təhlillər göstərə bilir ki, kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişaf etməsi bölgələrdə dayanıqlı iqtisadi artımın əsas aparıcı və hərəkətverici qüvvəsinə çevrilir.

Buna görə də milli sahibkarlığın inkişafına dair dövlət strategiyasının əsas prioriteti bölgələrdə kiçik və orta sahibkarlığın inkişafıdır. Bölgələrdə kiçik və orta sahibkarlığın böyüməsini sürətləndirmək və bunun əsasında sosial-iqtisadi problemlərin həlli bir neçə sahədə hökumət tədbirlərinin gerçəkləşdirilməsini tələb edir.

Regionlar daxilində kiçik və həmçinin orta sahibkarlıq fəaliyyətinin inkişafı üçün dövlət büdcəsindən ayrılan vəsaitlər Sahibkarlığa Kömək Milli Fondu vasitəsi ilə aşağıdakı kimi istifadə edilə bilər (Əliyev A.V., 2018: s. 77):

- kapitalın formalaşdırılması üçün kiçik və orta sahibkarlığa aşağı faiz dərəcələri ilə uzunmüddətli kreditlər verilməsi;

- yeni fəaliyyət üçün qısamüddətli, həmçinn aşağı faizli kreditlər verilməsi;

- İnnovativ layihələrin kreditləşdirilməsi və lizinq xidmətinin təşkil edilməsi.

Ayrı-ayrı dövlətlərin təcrübəsindən görünür ki, regionların inkişafın təmin etmək üçün dövlət tənzimlənmə prioritetləri aşağıdakı kimi müəyyən oluna bilər:

- dövlət bölgələrinin inkişafını təmin edən və stimullaşdıran hədəf regional proqramlar,

- rəqabətli sifarişlər və müqavilə sistemlərindən,

- investisya fondlarından geniş istifadə imkanlarından, indikativ planlardan istifadə etməklə respublika bölgələrinin maliyyə təhlükəsizliyini artırmaq üçün yerli-xarici sahibkarların, dövlətin kapitalının hesabına müştərək müəssisələrdə geniş şəbəkəni yaratmaq;

- aqrar təsərrüfat məhsulları istehsal etmiş kiçik və orta sahibkarlığı təkmilləşdirmək;

- istehsalçıların təbii iqlim mühitindən önə gələn iqtisadi risklərini ən aza endirmək üçün etibarlı sığorta sistemini yaratmaq və sairə.

Regional inkişaf üzrə dövlət tənzimlənməsində çox vacib bir aspekt bölgələrin sosial inkişafı ilə əlaqədardır. Dövlətin bu cür regional siyasətin özünü milli adətlər və ənənələrə, yerli xammala əsaslanmış kiçik müəssisələri inkişaf etdirməklə bölgələrdə iqtisadiyyatın ənənəvi formalarının qorunub saxlanmasına və inkişaf etdirilməsinə imkan verəcəkdir. Öz növbəsində bölgələrin həqiqi potensiallarına uyğun dinamik tarazlı inkişaf etməsi bütövlükdə milli iqtisadiyyatın rəqabət bacarığının artmasına səbəb olur.

Bu nöqteyi-nəzərdən, bu gün ölkəmizdə milli iqtisadiyyatda rəqabət qabiliyyətinin artırılmasının çox vacib bir istiqaməti bölgələrin sosial-iqtisadi inkişafı ilə birbaşa əlaqəlidir. Qeyd etmək gərəkdir ki, regional iqtisadiyyatın daxili rəqabət qabiliyyətinin təmin olunması resursların balansı və onlardan istifadənin dərəcəsindən, habelə dövlətin bu sahədə formalaşdırdığı və həyata keçirdiyi iqtisadi siyasətin xüsusiyyətindən asılıdır.

Azərbaycanda bölgələrin iqtisadi inkişaf səviyyəsinin sistematik təhlili və qiymətləndirilməsi bu gün ölkənin heç bir bölgəsinin bir neçə amil üçün rəqabət üstünlüyünə malik olmadığı qənaətinə gəlir. Bunu nəzərə alaraq, fikrimcə, bölgələrin iqtisadi inkişafına təkcə ayrı-ayrı iqtisadi zonalardan deyil, istehsal, texnoloji və reproduktiv, istehsal sahələrindən daha geniş sahəyə asılı olaraq sistemli və hərtərəfli yanaşmaq lazımdır. Məlumdur ki, ölkəmizin bölgələrinin rəqabət qabiliyyəti kənd təsərrüfatı istehsalının və xammalın əsas sahələrini əhatə edir. Bu baxımdan, ölkəmizdəki bölgələrin rəqabət qabiliyyətinin təmin olunması, emalı, infrastruktur və sosial sahələrin sürətlə və tarazlı inkişafı üçün əsas maddi əsas olan investisiya tələb etməkdədir.

Nəticədə, qloballaşma mühitində sistemin transformasiyası ilə əlaqədar son illərdə ölkədə həyata keçirilən keçid və regional inkişaf strategiyasındakı nəzəri və

praktiki məsələlərin, həmçinin son illərdə makroiqtisadi göstərici dinamikasının sistematik təhlili qarşıdakı illərdə güclü olduğunu göstərir.

## 3.2. Müasir dövrdə Azərbaycanda regionların davamlı inkişafı prioritetləri və perspektiv istiqamətləri

Regionlarda investisiya şəraitinin yaxşılaşdırılması, sahibkarlığın genişləndirilməsi və güzəştli kredit vəsaitlərinin verilmə məsələsi üzrə Sahibkarlığa Kömək Milli Fondun müstəsna önəmi vardır. Ölkə regionları və Bakı şəhəri qəsəbələrində sahibkarlıq fəaliyyətin genişləndirmək, investisiya şəraitini cəlbedici vəziyyətə gətirmək məqsədilə həmin Fond tərəfindən mütəmadi olaraq işgüzar forumlar gerçəkləşdirilir. Keçirilmiş həmin forumlar sayəsində sahibkarlıq subyektləri üçün güzəştli kreditin vəsaitlərindən istifadənin qaydaları izah olunur. Bununla yanaşı investisiya layihələri işlənib-hazırlanması və təqdim olunmasına aid treninq, həmçinin tədbir gerçəkləşdirilən inzibati rayonun iqtisadi imkanlarına uyğun olaraq maliyyələşdirilməsi nəzərdə tutulmuş investisiya layihələrinin təqdimatı olunur, sahibkarlar ilə müvəkkil kredit təşkilatlarında səlahiyyətli üzvlərin işgüzar əlaqələr formalaşdırılması, o cümlədən kredit vəsaitlərinin əldə edilməsi ilə əlaqəli məsələlər müzakirə edilir, sahibkarların vermiş olduğu təkliflər araşdırılır, ayrıca da, dövlətin bütün şəhər və rayonları ilə birlikdə iqtisadi imkanlar təhlil olunur, prioritet təkliflər müəyyən olunur, prioritet istiqamətlərdə təklif olunmuş investisiya layihələri ilə güzəştli kreditlər şərtləri sahibkarlığın subyektlərinə təqdim olunur.

Fondun tərəfindən 2016-cı ildə regionlarda 33, Bakının qəsəbələrində 6 olaraq 39 işgüzar forum gerçəkləşdirilmişdir. Keçirilmiş forumlarda sahibkarlar üçün güzəştli kredit vəsaitləri göstərilmiş, 3960 sahibkarlıq subyekti, eyni zamanda

regionlarda 3350, Bakının qəsəbəsində də 610 sahibkar üçün maarifləndirici təlimlər keçirilməklə iqtisadi motivi olan biliklər tədris olunmuş, investisiya planlarının təqdimatı edilib, müvəkkil kredit təşkilatları üzvləri və sahibkarlıq subyektləriylə mövcud olan iqtisadi perspektivlərdən daha çox optimal istifadə edilməsi məqsədilə müzakirələr aparılmış, tədbir gerçəkləşdirilmiş şəhər və rayonlarda investisiya layihələrinin qəbul edilməsi məqsədilə mətbuatda elanlar dərc olunmuşdur.

Qeyd olunan forumların başlıca mahiyyəti iqtisadi rayonlar və Bakı şəhəri qəsəbələrinin hazırki iqtisadi imkanlarının gerçəkləşdirilməsi istiqamətində sahibkarlıq subyektləriylə müzakirələr edilməsi, sahibkar təkliflərinin öyrənilməsi, ayrıca da investisiya layihələrinin işlənərək hazırlanması və təqdim olunmasına dair maarifləndirici təlimlər verilməsidir.

Fond tərəfindən keçirilmiş forumlar dairəsində sahibkarlıq subyektləriylə görüşlər aparılması və müzakirələrin edilməsi ilə yanaşı, həmin ərazilərdə potensial investisya potensialı, gerçəkləşdirilməsi əhəmiyyətli olan planlar belə müəyyənləşdirilir.

Odur ki, fiziki şəxslərin sahibkarlığa cəlb olunmasına, onların güzəştli kredit vəsaitlərinin hesabına biznes yaratmasını stimullaşdıraraq həqiqi sahibkarlar müəyyən edilir.

Sahibkarlığa Kömək Milli Fondunun tərəfindən həmin layihələrin maliyyələşdirilməsi istiqamətində əhəmiyyətli tədbirlər yerinə yetirilməkdədir. Həmin forumlar üzrə əsas gücün sahibkarlıq subyektləriylə müvəkkil kredit təşkilatlarının arasındakı işgüzar münasibətlərin formalaşdırılmasına və müzakirələr platformasında yönləndirilməsi sahibkarla müvəkkil kredit təşkilatı əlaqələri üzrə ən önəmli məsələlərin həll olunmasına-sahibkarların müvəkkil kredit təşkilatların öz biznes planlarında iqtisadi səmərəliliyinə inandırmalarına, qarşılıqlı müzakirələrin əsasında özləri barədə daha zəngin informasiyalar verməlɘri, eyni zamanda müvəkkil kredit təşkilatların sahibkarlıq subyektləriylə daha mütəmadi olaraq çalışmasına, potensial sahibkarların müəyyən edilməsinə və bunun nəticəsində də

daha artıq  kiçik və orta miqyasa malik biznes-planlar maliyyələşdirilməsinə imkan formalaşdırır (Əliyev A.V., 2018: s.57).

Azərbaycanda aqroparkların formalaşması kənd təsərrüfatı sahəsində sahibkarlıq fəaliyyətinin inkişaf etməsini daha çox geniş formada stimullaşdırmaqla iqtisadi, həmçinin sosial inkişafın möhkəmlənməsi, rəqabətədavamlı kənd təsərrüfat məhsul və xidmətlərinin istehsal edilməsi, ixrac potensialı və məşğulluğun yüksəldilməsi məqsədilə ayrıca əhəmiyyət kəsb etməkdədir. Aqroparkların formalaşdırılması dövlətin ixrac potensialının yüksəldilməi və miqyaslnın artmasında, milli brendlərin formalaşmasında, kiçik və orta kənd təsərrüfat subyektlərinin innovativ qabiliyyətin yüksəldilməsində, intensiv üsulların geniş şəkildə tətbiq olunmasında, kənd təsərrüfatı sahəsində əlaqələndirilən vahid mexanizmin, eyni zamanda istehsalçı, emalçı və istehlakçının arasında inteqrasiya münasibətlərinin əmələ gəlməsində, yüksək məhsuldarlığın əldə olunmasında, kənd təsərrüfatı sahəsində ixtisaslı işçi qüvvəsi hazırlanmasında və təzə iş yerlərinin formalaşdırılmasında ayrıca rola malik olacaqdır.

Postneft iqtisadi böhranının dövlət iqtisadiyyatı və ayrıca regionların iqtisadiyyatına neqativ təsirini azaltmaq, respublikamızda həyata keçirilən iqtisadi və regional siyasətin və islahatların daimiliyini təmin edə bilmək məqsədilə iqtisadiyyatın mövcud vəziyyətinin dəyərləndirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin 6-ı dekabr 2016-cı ildəki fərmanına əsasən “Milli iqtisadiyyatın və iqtisadiyyatın əsas sahələri üzrə strateji yol xəritəsindəki başlıca istiqamətlər” təsdiq edilmişdir (Azərbaycanda milli iqtisadiyyat perspektivinə dair Strateji Yol Xəritəsi”, 2016).

Qəbul olunmuş Strateji Yol Xəritələri respublikamızda dayanıqlı iqtisadi inkişafın fonunda iqtisadi konyuktur rəqabətədavamlılığını, inklüzivliyi və sosial durumunun daha çox yüksəldilməsinə imkan yaradacaqdır. Beynəlxalq iqtisadi çağırışlar üçün cavab kimi investisiya qoyuluşunun cəlb edilməsi, sərbəst rəqabət şəraiti, beynəlxalq və regional bazarlar üzrə çıxış və insan kapitalın inkişaf etməsi

nəticəsində dövlətimiz beynəlxalq iqtisadi şəraitdə yerini möhkəmləndirəcək, həmçinin yuxarı gəlirli ölkələr sırasına daxil olacaq.

Yerli və xarici mütəxəssislər, elmi təşkilatlar və məsləhətçi şirkətlərin iştirakı hazırlanan Strateji Yol Xəritələri, respublikada fəaliyyətdə olan beynəlxalq təşkilatlarla əhəmiyyətli əməkdaşlıq mühitində milli iqtisadiyyatın və iqtisadiyyatın 11 başlıca sahəsi üzrə 12 strateji yol xəritəsini işləyib hazırlamışdır. Qəbul olunmuş Strateji Yol Xəritələrindən hər biri içərisində 2016-2020-ci illərə iqtisadi inkişaf strategiyası, həmçinin tədbirlər kompleksin, 2025-ci ilə kimi olan müddətdə uzunmüddətli baxışı, həmçinin 2025-ci ildən sonra olan müddətdə hədəf baxışı özündə də ehtiva edir. Demək olar ki, Strateji Yol Xəritələrindən hər biri hazırlanan zaman açıq müzakirəyə çıxarılıb və sonda sənəd qəbul edilərkən maraqlı məqamların, ayrıca da vətəndaş cəmiyyəti institutları və ölkənin əhalisinin çoxsaylı rəyləri və təklifləri diqqətə alınmışdır.

Respublikada kiçik və orta sahibkarlıq fəaliyyətinin inkişaf etməsi ilə əlaqəli Strateji Yol Xəritəsi üzrə müəyyən edilən strateji məqsədə çatmaq üçün aşağıda göstərilənlər strateji hədəf olaraq müəyyən edilibdir:

- uzunmüddətli dövr üzrə kiçik və orta sahibkarlığın dövlətin ümumi daxili məhsula təsirini yüksəltmək məqsədilə Azərbaycanda investisiya mühiti və hüquqi bazanın daha çox təkmilləşdirilməsi;

- ölkənin strateji valyuta resurslarının yüksəldilməsi və Azərbaycanda istehsal olunan mal və xidmətlərin beynəlxalq normalar üzrə uyğunluğunun təmin olunması üçün kiçik və orta sahibkarlığın qloballaşdırılması, həmçinin xarici bazarlara çıxış perspektivlərinin yüksəldilməsi;

- KOS subyektinin dayanıqlı mexanizminin formalaşdırılmasıməqsədi ilə maliyyələşmə mənbələrinəsəmərəli və optimal çıxışın

təmin olunması;

- peşəkar əmək ehtiyyatlarının yetişdirilməsi və KOS subyektləri bacarıqlarının inkişafına xüsusi diqqət etməklə, region bazarları daxilində keyfiyyətli mal və xidmətlər təklifinin yüksəlməsi;

- KOS subyektlərinin rəqabətədavamlılığının yüksəldilməsi üçün innovasiyaların təşviq edilməsi, bu sahə ilə bağlı araşdırmalar və inkişaf fəaliyyətinin sürətlənməsi.

Əsas fəaliyyət istiqaməti olaraq Azərbaycanda KOS subyektlərinə münasibət üzrə normativ-hüquqi baza inkişaf etdirilməklə maliyyə və vergi siyasətin təşviqedici təsirinin möhkəmlənlənməsi, maliyyə mənbələri üzrə əlçatanlığın yüksəlməsi, texniki və məlumat mexanizmi möhkəmləndirilməsi, KOS subyektlərinin ərazi üzrə əhəmiyyətli yerləşməsi, milli bazarın müdafiə olunması, bazar infrastrukturlarının inkişaf etdirilməsi və həmçinin zəruri olan sənədlərin əldə edilməsində "vahid pəncərə" mexanizmi tətbiq edilməsi, bu sahədə təmsil edilən subyektlərin arasında qarşılıqlı iqtisadi əlaqələrin möhkəmləndirilməsi və s. belə yönlərə istiqamətləndiriləcəkdir.

"Azərbaycanda KOS səviyyəsi üzrə istehlak mallarının istehsalı üzrə Strateji Yol Xəritəsi" regionlarda iqtisadi inkişaf təmin edilməsi və regional sahibkarlığın təkmilləşdirilməsində çox önəmli əhəmiyyət kəsb edir.

Strateji Yol Xəritəsi üzrə KOS-un inkişafı üzrə strateji hədəflərin hamısı qəbul edilmişdir ki, həmin hədəflərə nail olunması regionların inkişaf etməsini sürtləndirəcəkdir. Həmin hədəflər aşağıdakılardır(Azərbaycan daxilində kiçik və orta sahibkarlıq səviyyəsindəki istehlak mallarının istehsalı üzrə Strateji Yol Xəritəsi, 2016):

- kiçik və orta sahibkarlıq subyektinin fəaliyyəti məqsədilə biznes mühiti və tənzimləyici baza yaxşılaşdırılması;
- KOS subyektinin maliyyə ehtiyyatlarına sərfəli və əhəmiyyətli çıxışının təmin olunması;
- KOS subyektlərin beynəlmiləlləşdirilməsi, həmçinin xarici bazarlara çıxış perspektivlərinin yüksəldilməsi;
- KOS subyektlərinin biliklərinin və bacarıqlarının yüksəlməsi, qabaqcıl təcrübələrin tətbiq olunmasının sürətləndirilməsi;

• İnnovasiyalar təşviq olunması, KOS subyektləri üzrə araşdırma və inkişaf fəaliyyətinin genişlənməsi. Strateji Yol Xəritəsində bəzi prioritetlər müəyyən edilibdir ki, bunlar isə aşağıdakılardır:

• Mərkəzləşdirilən KOS agentliyinin formalaşdırılması;

• KOS subyektləri üzrə qanunvericilik bazasının inkişaf etdirilməsi və qanunvericiliyin təsir analizinin tətbiqi;

• Dövlət-özəl tərəfdaşlıq münasibətlərinin dərinləşməsi;

• Rəqabət mühitinin təkmilləşdirilməsi;

• KOS subyektlərinin fəaliyyəti üzrə yoxlama və lisenziyalaşdırma mexanizminin inkişaf etdirilməsi və vergi islahatının davam etdirilməsi;

• KOS subyektləri üzrə spesifik sənaye zonalar və klasterlərin formalaşması;

• Dövlət-özəl sektorlarının əməkdaşlığının genişlənməsi, KOS subyektlərini təmsil etməkdə olan orqanların güclənməsi;

• KOS subyektlərinin arasındakı anlaşmazlıqların alternativ həll imkanlarının təkmilləşdirilməsi;

• KOS subyektlərinin müəyyən edilmə meyarlarının bütün dəstəkvermə tədbirləri üzrə tətbiq edilməsi, statistik informasiyalar sistemləşdirilməsi;

• KOS subyektləri ilə əlaqəli kreditlər üçün zəmanət fondunun formalaşması;

• Əmlak məsələləri əsasında fəaliyyətin təkmilləşdirilməsi və maliyyənin əlçatanlığın yüksəldilməsi;

• Respublikamızda lizinq, həmçinin alternativ maliyyə alətlərinin inkişaf olunması ilə KOS subyektlərin maliyyəyə çıxışının sadələşdirilməsi;

• KOS subyektlərin beynəlxalq ticarət əməliyyatları üzrə maliyyə xidmətinin genişləndirilməsi, həmçinin birbaş xarici investisiya yatırımlarının stimullaşdırılması;

• ayrı-ayrı sahələr üzrə ixrac assosiasiyalarının formalaşması;

• Biznes inkubatoru ilə startap layihələrinin təkmilləşdirilməsi, model müəssisələr formalaşdırılması;

- KOS subyektlərin təlim və tədris perspektivlərinni yüksəldilməsi, qabaqcıl təcrübələr tətbiq olunmasının sürətləndirilməsi;
- Qadın sahibkarlığının inkişafı üçün imkan yaradılması;
- KOS subyektlərinin fəaliyyətin innovasiya infrastrukturu yaradılması;
- KOS subyektlərinin fəaliyyətin təşviq edə bilən innovasiya infrastrukturu yaradılması.

Regionlarda və Bakının qəsəbələrində sahibkarlar üçün maarifləndirici biliklər verilməsi, çağdaş biznes metodlarının tədris olunması, ümumi olaraq, biznes fəaliyyətini gerçəkləşdirmə potensialının sürətləndirilmə sferasına bəzi tədbirlər yerinə yetirilibdir. İqtisadiyyat Nazirliyi tərkibində fəaliyyətdə olan Biznes Tədris Mərkəzin təşkilatçılığı nəticəsində sahibkarlıq subyektləri üzrə ayrı-ayrı istiqamətli treninqlər və seminarlar təşkil edilib, treninq mövzuları ixtisaslaşdırılmaqla sahibkarlıq subyekti ehtiyaclarına uyğun olaraq formalaşdırılıbdır.

Regionlarda fəaliyyətdə olan sahibkarlıq subyektlərinin tədbirlər zamanı iştirak həcmi mütəmadi şəkildə yüksəlmiş, treninqlərlə yanaşı, regionlar və Bakı şəhərində çoxsaylı maarifləndirici tədbir təşkil olunubdur. Biznes Tədris Mərkəzi respublikanın 7 rayonunda və şəhərində-Gəncədə, Qazaxda, Yevlax və Göyçayda, Lənkəranda, Şəki və Xaçmazda nümayəndəlikləri formalaşdırılıbdır.

Həmçinin gənc sahibkarların fəaliyyətinin inkişaf etdirilməsi üçün Regional Mərkəz daxilində biznes inkubator işə başlamışdır, belə ki, gənc sahibkarlıq subyektlərinin biliklərinin və bacarıqlarının yüksəldilməsi ilə bağlı dövlətin dəstək proqramı icra edilir.

İnkişaf strategiyasının həyata keçirilməsində, habelə dövlətin regionlarının sosial-iqtisadi inkişafında yeni keyfiyyət mərhələsinə yüksəlməsi zamanı regionların sosial-iqtisadi inkişafıyla əlaqədar qəbul edilmiş dövlət proqramı (2004-lə 2008, 2009-lə 2013 və 2014-2018, 2019-2023-cü illər üzrə) böyük əhəmiyyət daşıyır. 2004-lə 2008, 2009-la 2013, 2014-lə 2018-ci illər ürzə regionların sosial-iqtisadi inkişaf proqramlarından digər fəsildə söz açmışdıq. 2019-2023-cü illər üzrə regionların sosial-iqtisadi inkişaf proqramıAzərbaycan Respublikası Prezidentinin

yerinə yetirdiyi uzunmüddətli iqtisadi inkişaf strategiyası Azərbaycanın regionlarının tarazlı və dayanıqlı inkişafının təmin edilməsini, habelə yerlərdəki dayanıqlı inkişafetmə prinsipinə əsaslanmış rəqabətqabiliyyətli iqtisadiyyata və yüksək standartlara cavab verə bilən rifah, təbii ehtiyyatların səmərəli şəkildə istifadəsini, ətraf mühitin əhəmiyyətli şəkildə qorunmasını təmin edə bilən ekoloji təhlükəsizlik strukturunun formalaşdırılması üçün imkan yaradan səmərəli şərait yaratma məqsədini daşıya bilir.

Bu məqsədə nail olmaq məqsədilə Dövlət Proqramı çərçivəsində aşağıda göstərilən vəzifələrdən hər birinin yerinə yetirilməsi nəzərdə tutulubdur(Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının (2019-2023-ci illərdə) təsdiq edilməsi barədə Azərbaycan respublikasının prezidentinin fərmanı, (2019):

1. iqtisadiyyatın şaxələndirilməsinin genişləndirilməsi və səmərəliliyinin yüksəldilməsinə əsasən rəqabətqabiliyyətliliyinin artırılması;

2. regionlarda məşğulluq imkanlarının çoxaldılması;

3. sahibkarlığın, habelə KOB-ların inkişafının gücləndirilməsi, onların maliyyə dayanıqlılığının daha da möhkəmləndirilməsi;

4. KOB-larln inkişafında dövlət qurumları tərəfindən sahibkarlara daha keyfiyyətli, yeni üslubda, rahat, müasir innovasiyaları tətbiq edərək xidmətlərin göstərilməsinin təmin olunması;

5. regionların inkişaf potensialının yerinə yetiriləsinə dəstək məqsədilə yeni KOB-ların təşkil edilməsi, mövcud KOB-ların inkişaf etdirilməsi, KOB Dostları şəbəkəsinin formalaşdırılması, səmərəli fəaliyyətinin təmin olunması;

6. regionlarda müxtəlif turizm sahələrinin inkişafının dəstəklənməsi, habelə turizm sahəsində göstəriləcək xidmətlərin keyfiyyətinin yaxşılaşdırılması;

7. sosial xidmətlərin növlərinin artırılması, keyfiyyətinin yaxşılaşdırılması, aztəminatlı əhali üçün əlçatanlığının təmin olunması;

8. regionlarda əhalinin yaşayı. səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılması, habelə həssas əhali qruplarına məxsus sosial müdafiənin gücləndirilməsi və b.

Bu Proqramın tətbiq edilməsi nəticəsində, 2019-2020-ci illər ərzində kənd yerlərinin inkişaf potensialı daha da güclənmiş və bu potensialdan istifadənin səmərəliliyi yüksəlmiş, xidmət və turizm sektorları daha da inkişaf etmiş, KOB-ların sayı artmış, onların fəaliyyəti genişlənərək yerli iqtisadiyyatda əlavə dəyərin artımına təkan vermişdir, həmçinin, kiçik fermer təsərrüfatları inkişaf edərək müasir və iri fermer təsərrüfatları yaranmış və nəticə etibarilə regionların davamlı və tarazlı sosial-iqtisadi inkişafına nail olunmuşdur.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Bazar iqtisadiyyatında hərəkətverici qüvvə sahibkarlıqdır. Sahibkar özünün iqtisadi təbiətinə əsasən öz mənafeyini güdən insandır. Ancaq, buna baxmayaraq sahibkar cəmiyyətə çox və önəmli xidmətlər göstərir. Odur ki, o, istehsal və sahibkarlıq obyektlərin yaradaraq milli iqtisadiyyatı formalaşdıra, cəmiyyət üzvlərin işlə təmin edə, cəmiyyətin məhsullar və xidmətlərə olan tələbatın ödəyə, öz gəlirlərindən vergi verərək cəmiyyyətin ümumi xərclərinin ödənilməsi üçün iştirak edə bilir.

Dünya təcrübəsindən aydın olurki, sahibkarlıgın inkisafı üçün ilk əvvəl makroiqtisadi səviyyədə sabitlik əldə edilməli, səmərəli sahibkarlıq mühiti yaradılmalıdı. Həmin mühitin yaradılması dövlət səviyyəsindən başlayan hər bir fərdin sahibkarlıq fəaliyyəti üzrə münasibətinə qədər əksər məsələlərin həll edilməsindən asılıdır. Respublikamızda ilk dövrlər siyasi-iqtisadi böhran sahibkarlıq fəaliyyətinin təşəkkül tapmasına mənfi vələngidici təsir etsə də, növbəti dövrdə siyasi və iqtisadi sabitliyin əldə edilməsisahibkarlıq mühitini əhəmiyətli şəkildə yaxşılaşdırmışdır.

Müasir təsərrüfat formalarının içərisində sahibkarlıq fəaliyyəti ayrıca əhəmiyyət kəsb etməkdədir. Sahibkarlığın inkişaf etdirilməsi də ölkənin iqtisadiyyatı yüksəltməsinin başlıca istiqamətlərindəndir. Azərbaycan Respublikasının prezidentinin “Sahibkarlığ fəaliyyətinin inkişafı ilə əlaqədar olaraq əlavə tədbirləri haqqında” vermiş olduğu fərmana əsasən respublikada sahibkarlığın təkmilləşdirilməsi və biznes şəraitinin formalaşdırılması yönündə sistemli tədbirlər

davam etdirilərək, xeyli mütərəqqi normativ və hüquqi baza yaradılıbdır. Sahibkarların elektron şəkildə qeydiyyatı, xarici ticarət əməliyyatlarının həyata keçirilməsi, korporativ idarəetmənin inkişaf etdirilməsi, investisiya yatırımların gerçəkləşdirən investorların maraqlarının müdafisəsi və müflisləşməsində qanunvericilikdə bir sıra dəyişikliklər edilmişdir.

Azərbaycanda sahibkarlıq fəaliyyətinin inkişafının təmin olunmasında başlıca yük regionlar üzərinə düşür. Regionların inkişfaı prioritet olaraq sahibkarlıq fəaliyyəti inkişafında məhz bu təməllər üzərində qurulu olmaqdadır. Regionların inkişafının artması sahibkarların fəaliyətini stimullaşdıra bilir, onların daha çox rahat fəaliyyət göstərmələri üçün şərait yaradır. Regionlarda sahibkarlığı inkişaf etdirmək ölkənin daima diqqət mərkəzindədir, həmçinin bu sahədə belə önəmli işlər görülməkdədir.

“Regionların sosial-iqtisadi inkişafının barədə” dövlət proqramının prezident İlham Əliyevin tərəfindən qəbul edilməsi və reallaşdırılması son dövrlərdə ölkəmizdə yerinə yetirilən Heydər Əliyev strateji kursunun məntiqinəticəsinin əyani sübutdur. Buna uyğun şəkildə regional inkişaf proqramında rayonların əmək resurslarından, müxtəlif təbii resurslardan, istehsalın maddi ünsürlərindən, maliyyə imkanından, iqlim şəraitindən, xarici investisiya, elmi texniki potensialdan əhəmiyyətli şəkildə istifadə dərək ayrı-ayrı təsərrüfatçılıq formalarının, sahibkarlığın inkişafına, respublikanın bölgələrdə məhsuldar qüvvələrin əhəmiyyətli şəkildə yerləşdirilməsi üçün nail olmaq məqsədilə tədbirlər müəyyənləşdiriib.

Regional siyasətin, dayanıqlı sosial-iqtisadi inkişaf konsepsiyasının əsas məqsədi və vəzifələri aşkar edildiyi zaman respublika iqtisadiyyatının, hər bir bölgənin ayrılıqda hazırki vəziyyəti, iqtisadiyyatın sabitləşməsi, sosial mühit şəraiti daxilində bazar strukturlu təsərrüfat formaların inkişafına əsasən regionların arasındakı böyük fərqin, elmi-texniki, kadr potensialının sürətlənməsinə baxmayaraq ölkəmizin ayrı-ayrı regionlarının tələbatlarının fərqliliyi indi də mövcuddur. Bunlarınisə gələcək inkişaf proqramlarda nəzərə alınmağı məqsəduyğundur.

Ölkəmizdə kiçik və orta sahibkarlığın inkişaf etməsi ilə bağlı aşağıdakı təklifləri verə bilərik:

- Azərbaycan iqtisaiyyatının indiki mərhələsi üzrə müəsisələrin həcmindən asılı olmamaqlasahibkarlığınformalarının hamısı inkişaf etdirilməlidir. Ancaq, tədqiqatlardan aydın olur ki, öz xarakteri və xüsusiyyətləri nöqteyi-nəzərdən ölkəmizdə kiçik və orta sahibkarlıgın təkmilləşdirilməsi daha məqsədəuyğundur.Ona görə də əsas olan, kiçik müəssisələr ilə orta müəssisələr aşağı kapital əmək tutumuna malik olur və bazar mühitinə bir qədər tez uyğunlaşır. Bu cür müəssisələr iflas etsələr belə, yeni kiçik və orta müəssisələr təşkili elə çox çətinlik yaratmır.

- Regionlarda KOS-un inkişaf etdirilməsi məqsədilə sahibkarların ilk əvvəl azadlığa malik olmaları, iqtisadi fəaliyyət ilə məşğul olanlar üzrə istehsal və idarəetmə məsrəflərinin aşağı olması, sahibkarın öz fəaliyyətini istehlakçıların tələbatlarına müvafiq olaraq yaratması və lazım gəldiyi zaman istehlakçıların tələbatlarına müvafiq olaraq istehsal olunan məhsulun forması və keyfiyyətində qısa zamanda dəyişiklik edilə bilməsi;

- Bazar iqtisadi sistemli dövlətlərdə yaradılmış iqtisadi və sosial şərait kiçik və orta sahibkarlıgın əhəmiyyətli fəaliyyətinə təsir göstərir. Bu məqsədlə dəölkədə ümumiyyətlə sahibkarlıq əlaqələrinin formalasdırılmasından asılı olmamaqla, bu sahə üzrə zəruri mühit, normativ aktlar və başqa sosial-iqtisadi , həmçinin hüquqi sənədlərin qəbul olunması və həmçinin onların gerçəkləşdirilməsini bir qədər sürətləndirmək, işləkliyin təmin etmək, o cümlədən nəzarəti gücləndirmək həlledici şərtlərin biri kimi qəbul edilməlidir.

- Qəbul olunmuş Strateji Yol Xəritələrində strateji hədəflər, prioritetlər və həyata keçirləcək tədbirlər regional miqyas üzrə təmin edilməlidir;

- Kiçik və orta sahibkarlığın prespektivli sahələrinin inkişaf etməsini təmin etmək üçün də əsasən dövlətin məqsədli proqram və tədbirlərini həmin sahələrin inkişafı üçün yönəltmək;

- Kiçik və orta sahibkarlığın inkişafını artırmaq üçün güzəştli vergilər tətbiqi, vergi sisteminin inkişaf etdirilməsi, gömrük rəsmiləşdirilmə prosedurlarının qısaldılması və gömrük rüsumlarının tətbiq edilməsində güzəştlərin artırılması;

- Kiçik və orta sahibkarlıq subyektinin səmərəli fəlaiyyəti, hüquq və maraqlarının müdafiə edilməsini təmin etmək məqsədilə müvafiq qanunvericilik bazasının inkişaf etdirilməsi, yeni qanunlar və normativ aktlar qəbul edilməsi.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

### Azərbaycan dilində


1. Azərbaycan Respublikası Mülki Məcəlləsi, maddə: 13 "Sahibkarlıq fəaliyyəti"
2. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan respublikası prezidentinin fərmanı, (2004). Bakı
3. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2009-2013-cü illər) təsdiq edilməsi haqqında Azərbaycan respublikası prezidentinin fərmanı, (2009). Bakı
4. Azərbaycan sahibkarlığının inkişafının bazar mexanizmləri" (2008) Azərbaycan Milli Elmlər Akademiyası İqtisadiyyat İnstitutu, "Elm", 300 səh.
5. Abbasov S.A., "Sahibkarlıq biznesin təşkilinin forması kimi", Bakı, 2017, Azərbaycan Vergi xəbərləri, 17 səh.
6. Allahverdiyev H.V., Qafarov K.S., Əhmədov Ə.M., (2007) "Milli iqtisadiyyatın dövlət tənzimlənməsi", "Bakı, Maarif", 564 səh.
7. Atakişiyev R.S., "Azərbaycan iqtisadiyyatında kiçik müəssisələrin yeri və rolu", Bakı, 2013, "EcoVision" jurnalı, 5 səh.
8. Əhmədov M.A., Hüseyn A.C., (2011). "İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları", Bakı, "İqtisad Universiteti", 120 səh.

9. Əhmədov T., (2012). "Azərbaycanda orta və kiçik sahibkarlığın inkişafına dair", Bakı, "Səda", 242 səh.

10. Əlirzayev Ə.Q., (2000). "Azərbaycanda sahibkarlığın inkişaf problemləri, həlli yolları: təcrübə və nəzəriyyə", Bakı, "Elm", 350 səh.

11. Əliyev A.V., (2018). "Sahibkarlıq fəaliyyətinin mahiyyəti və formaları", Şamaxı, "Çıraq", 317 səh.

12. Əsgərov Ə.A., Hüseynov E.M., Hüseynov S.Y., (2009). "Davamlı insan inkişafı", Bakı, "Aqrar Universiteti", nəşriyyatı, 243 səh.

13. İbrahimov İ.H. (2007). "Regionlarda sahibkarlığın inkişf meyilləri və xüsusiyyətləri", Bakı, "Səda", 296 səh.

14. İbrahimov İ.H. (2010). "Sahibkarlıq fəaliyyətinin tənzimlənməsi məsələləri", Bakı, "Səda", 248 səh.

15. İbrahimov İ.H. İbrahimov E.R., (2004). "Sahibkarlıq fəaliyyətinin iqtisadi, hüquqi mexanizmi", Bakı, "Azərbaycan", 135 səh.

16. İmanov İ.S., (2009). "Kiçik sahibkarlıq" Bakı, "CBS", 342 səh.

17. "Kiçik və orta sahibkarlar üçün vergi güzəştləri", (2018). Bakı, PwC Azerbaijan Times, 20 saylı buraxılış, dekabr, 4 səh.

18. Qasımov Ə.C., İsrafilov H.A., Hacızadə E.M., Ağayev E.A., (2006). "Regionların sosial və iqtisadi inkişaf problemləri", Bakı, "İqtisad Universiteti" nəşriyyatı, 206 səh.

19. Qasımov F.H., İsmayılov İ.H., Qasımova L.F., (2008). "Sahibkarlığın əsasları", Bakı, "MMA", 602 səh.

20. Mahmudov M.M., Mahmudova İ.M., (2009) "Regionların sosial və iqtisadi inkişafının tənzimlənməsi", Bakı, "İqtisad Universiteti", 586 səh.

21. Manafov Q.N., (2000). "Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi aspektləri", Bakı, "Zaman", 238 səh.

22. Musayev V.R., Seyfullayev İ.Z., (2000). "Sahibkarlığın əsasları", Bakı, "Çaşıoğlu", 243 səh.

23. Niftullayev V.M., (2002). “Sahibkarlığın əsaslan”, Bakı, “Zaman”, 609 səh.

24. “Sahibkarlıq fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanunu, (1992). Bakı şəhəri, № 405

25. Vəliyev T.S., Meybullayev M.X., Babayev Ə.P. (2001). “İqtisadi nəzəriyyə”, Bakı, “Zaman”, 241 səh.

### İngilis dilində

1. Humbatova, Sugra İ., Hajiyev, Natig G-O. “Two-Factorıal Functıonal Analysıs Of Economıc Development In The Regıons Of Azerbaijan” Electronic Journal of Polish Agricultural Universities. 2017, Vol. 20 Issue 4, p1-31. 31p.

### İnternet resursları

1. http://smb.gov.az/news/kobia-nin-idar-heytinin-sdri-orxan-mmmdovun-report-informasiya-agentliyin-musahibsi, 2019

2. https://cabmin.gov.az/az/document/3251/, 2018

3. 4.https://economy.gov.az/article/sahibkarl%C4%B1%C4%9F%C4%B1ninki%C5%9Faf%C4%B1-dinamikas%C4%B1/21386, 2018

4. https://mida.gov.az/documents/Ki%C3%A7ik_v%C9%99_orta_sahibkarl%C4%B1q_s%C9%99viyy%C9%99sind%C9%99_istehlak_mallar%C4%B1n%C4%B1n_istehsal%C4%B1na_dair.pdf, 2016

5. https://www.economy.gov.az/article/azda-sahib-inkishaf-tar/21410, 2019

## Cədvəllərin siyahısı

**Cədvəl 1:** Sahibkarlığın mikro, kiçik, orta və iri formalarının bölgüsü meyarları............................................................................................................41
**Cədvəl 2:** Kiçik və orta sahibkarlığın GZİT təhlili................................................42

## Diaqramların siyahısı

**Qrafik 1:** Kiçik və orta bizneslərin aldığı dəstəyin əsas mənbələri........................46